## Tələbələr və sərnişinlər şikayətlənirlər

AZAL-ın bilet qiymətləri ilə bağlı narazılıqlar artır



**Türkiyədə təhsil alan azərbaycanlı tələbələrin yay tətillərində ölkəyə qayıtması ilə bağlı aviasiya biletlərinin qiymətləri yenidən ictimai müzakirə mövzusuna çevrilib.**

"Şərq" xəbər verir ki, sosial şəbəkələrdə yayılan məlumatlara görə, ötən il tələbələr üçün tətbiq edilən güzəştli tariflər bu il ləğv olunub və nəticədə aviabiletlərin qiymətində ciddi artım müşahidə edilir.

(səh.5)



## Bakıda tıxacın əsas səbəbi məktəblər və universitetlərdir

İş qrafiklərinin dəyişdirilməsi tıxac problemini kökündən həll etməyəcək

**Güman ki, yeni tədris ilinin başlanğıcında paytaxtda dəyişkən iş qrafiki tətbiq olunacaq. Bu, "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nda əksini tapıb.**

(səh.4)

№ 21 (6502) 2026-cı il

Qiymәti 50 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 12 iyun - 19 iyun 2026-cı il (cümə)



# Azərbaycanda rekord məhvetmə əməliyyatı

## 4,5 tondan çox narkotik vasitə yandırıldı

**İyunun 11-də polis əməkdaşları tərəfindən aşkarlanan müxtəlif növ narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının növbəti məhv edilməsi prosesi keçirilib.**

Bu barədə "Şərq"ə Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun təşkilatçılığı ilə Daxili İşlər Nazirliyi tərəfindən qanunsuz dövriyyədən çıxarılan və məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı qəbul edilmiş 4 ton 576 kiloqram müxtəlif narkotik vasitə və 122 min 367 ədəd psixotrop tərkibli həb paytaxtın Sabunçu rayonu ərazisində məhv edilib.



## Tramp İrana hücum planını ləğv etdi

Sazişin imzalanacağı yer və vaxt tezliklə açıqlanacaq

**ABŞ Prezidenti Donald Tramp İranla əldə olunması gözlənilən sazişin imzalanacağı yer və vaxtın yaxın zamanda açıqlanacağını bildirib.**

Tramp "Truth Social" hesabında paylaşdığı mesajda "İmzalanma mərasiminin vaxtı və yeri tezliklə elan ediləcək" ifadələrini işlədib.

ABŞ lideri sazişin detalları və ya imzalanma tarixinin dəqiq nə vaxt açıqlanacağı barədə əlavə məlumat verməyib.

Qeyd edək ki, Tramp bir az əvvəl İrana qarşı genişmiqyaslı hərbi əməliyyatlar həyata keçirə biləcəklərini bəyan etsə də, sonradan planlaşdırılan zərbələrin dayandırıldığını açıqlamışdı.

(səh.3)

# Sosial şəbəkələr Azərbaycanda ciddi hüquqi çərçivəyə salınacaq

## Qanun qüvvəyə mindikdən sonra onun icrası üçün sosial media platformalarına 12 ay vaxt veriləcək




**Yəni əgər "Meta", "Google" və "TikTok" kimi platformalar bu qanunun tələblərinə əməl etsələr, Türkiyədə olduğu kimi Bakıda da onların ofisləri açılacaq**

**Uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin edilməsi məqsədilə hazırlanan qanun layihəsi ictimai müzakirəyə çıxarılıb. Layihəyə görə, 16 yaşadək uşaqlar üçün müəyyən ediləcək sosial şəbəkələrdə hesab açılması qadağan olunur. 16-18 yaş qrupu üçün isə valideyn razılığı, valideyn nəzarəti və əlavə təhlükəsizlik mexanizmləri nəzərdə tutulur.**

MEDİA-nın təşkilatçılığı ilə keçirilən müzakirələrdə müvafiq dövlət qurumları, media subyektləri və jurnalist təşkilatlarının səlahiyyətli nümayəndələri, həmçinin əlaqəli sahələr üzrə məsul şəxslər, rəqəmsal məzmun yaradıcıları və ekspertlər iştirak ediblər.

(səh.2)



## Ərdoğan Paşinyanı seçkilərdə qələbə münasibətilə təbrik edib

Türkiyə Prezidenti Paşinyanın regionda uzunmüddətli sülh və sabitliklə bağlı strateji baxışının uğurla həyata keçəcəyinə inanır

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın Baş naziri Nikol Paşinyanı parlament seçkilərində qələbəsi münasibətilə təbrik edib.**

Ərdoğan mesajında bildirib ki, Paşinyanın regionda uzunmüddətli sülh və sabitliklə bağlı strateji baxışının uğurla həyata keçəcəyinə inanır.

*Qeyd edək ki, Ermənistanda keçirilən son parlament seçkilərində Paşinyanın rəhbərlik etdiyi "Mülki müqavilə" Partiyası ilkin nəticələrə görə 49,8 faiz səs toplayıb və öndə gedir.*

# Paşinyan konstitusion çoxluqdan məhrum oldu

## Paşinyanın əl-qolu bağlanır, konstitusiya islahatı mümkün deyil



**İyunun 7-də Ermənistanda parlament seçkilərinə keçirilən səsvermə prosesi gözlənilməz sonluqla nəticələndi. Baş nazir Nikol Paşinyanın "Vətəndaş müqaviləsi" Partiyası, 49.81 faiz səs toplayıb. O, rəqiblərindən fərqlənsə də, Konstitusion çoxluğundan məhrum oldu.**

Kreml dairələrinin təbirincə desək, Paşinyanın hakimiyyətə gəlişindən bəri hədəf taxtasına çevrilən erməni oliqarx Qaqik Sarukyanın, "Çiçəklənən Ermənistan" Partiyasının cəmi 4 faiz səs toplaması, müxalif qüvvələrlə Rusiyanı çilədən çıxarıb.

(səh.3)



## Göygöl rayonunda iki azyaşlı suda boğuldu

**Fövqəladə Hallar Nazirliyinin "112" qaynar xəttinə Göygöl rayonu, Bəhrənbağ qəsəbəsi ərazisində azyaşlıların süni göldə batması barədə məlumat daxil olub.**

Bu barədə Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Məlumatla əlaqədar dərhal FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıcları çağırış üzrə cəlb olunub.

Dalğıclar tərəfindən 2017-ci il təvəllüdlü Həsənov Ramil Rövşən oğlunun meyiti suda tapılıb çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.

Göldə batan digər azyaşlı, 2016-cı il təvəllüdlü Nəsibov Yusif Sərxan oğlunun da meyiti tapılıb.

*Hadisə ilə əlaqədar müvafiq qurumlar tərəfindən araşdırma aparılır.*



## Konstitusiya dəyişmədən sülh sazişi sadəcə kağız parçası olacaq

**Elmar Məmmədyarov:** "Paşinyan Azərbaycanın şərtini yerinə yetirmək üçün alternativ yollar axtarmalıdır"

**Parlament seçkilərindən öncə siyasi dairələr, Ermənistan xalqının taleyini düşünürdü. İyunun 7-də açıqlanan nəticələr isə bu düşüncəni başqa istiqamətə yönləndirdi. Hazırda proseslər xalqdan ziyadə, Paşinyanın taleyinin necə olacağı üzərində düyünlənib.**

(səh.2)







# Sosial şəbəkələr Azərbaycanda ciddi hüquqi çərçivəyə salınacaq

## Qanun qüvvəyə mindikdən sonra onun icrası üçün sosial media platformalarına 12 ay vaxt veriləcək

**Uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin edilməsi məqsədilə hazırlanan qanun layihəsi ictimai müzakirəyə çıxarılıb. Layihəyə görə, 16 yaşadək uşaqlar üçün müəyyən ediləcək sosial şəbəkələrdə hesab açılması qadağan olunur. 16-18 yaş qrupu üçün isə valideyn razılığı, valideyn nəzarəti və əlavə təhlükəsizlik mexanizmləri nəzərdə tutulur.**




**Yəni əgər "Meta", "Google" və "TikTok" kimi platformalar bu qanunun tələblərinə əməl etsələr, Türkiyədə olduğu kimi Bakıda da onların ofisləri açılacaq**

MEDİA-nın təşkilatçılığı ilə keçirilən müzakirələrdə müvafiq dövlət qurumları, media subyektləri və jurnalist təşkilatlarının səlahiyyətli nümayəndələri, həmçinin əlaqəli sahələr üzrə məsul şəxslər, rəqəmsal məzmun yaradıcıları və ekspertlər iştirak ediblər.

**Tədbirdə çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, uşaqların erkən yaşlardan sosial şəbəkələrdən nəzarətsiz istifadəsi gələcəkdə müxtəlif psixoloji və sosial problemlərə yol aça biləcəyini göstərir:** "İnkişaf etmiş ölkələrdə uşaqlar üçün zərərli hesab edilən, onların fiziki və psixoloji sağlamlığına mənfi təsir göstərən sosial media istifadəsinin məhdudlaşdırılması istiqamətində müxtəlif qanunvericilik tədbirləri həyata keçirilir.

Müasir diaqnostik təhlillər erkən yaşlarda tənzimlənməyən sosial şəbəkə istifadəsinin gələcəkdə müxtəlif problemlərə səbəb ola biləcəyini aşkarlayıb. Ölkəmizdə İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik bir neçə əsas aspekti əhatə edir və uşaqların rəqəmsal mühitdə daha təhlükəsiz şəkildə fəaliyyət göstərməsini hədəfləyir. Bu qanun layihəsi rəqəmsal dünyanın mövcud problemlərindən qorunma baxımından mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə müvafiq dövlət qurumları arasında əməkdaşlığın gücləndirilməsi də vacib hesab olunur".

O həmçinin bildirib ki, nəzərdə tutulan dəyişikliklər internet provayderləri və rəqəmsal platformaların uşaqların inkişafı ilə bağlı sosial və hüquqi məsuliyyətini artıracaq, eyni zamanda vətəndaşların rəqəmsal təhlükələrdən və informasiya risklərindən qorunmasına xidmət edəcək.

**Əhməd İsmayılov qeyd edib ki, layihə çərçivəsində yaş yoxlaması üçün toplanan şəxsi məlumatların saxlanılması və reklam məqsədilə üçüncü tərəflərə ötürülməsi qadağan olunur. Eyni zamanda, yetkinlik yaşına çatmayan şəxslərin sosial şəbəkələrdə paylaşdığı məlumatların sonradan tam silinməsi hüququ da nəzərdə tutulub:** "Qanun layihəsi rəqəmsal təhlükələrdən qorunma, sağlam informasiya mühitinin formalaşdırılması və uşaqların mənəvi-intellektual inkişafının müdafiəsi baxımından mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, qanunun effektiv tətbiqi üçün valideynlər, müəllimlər və cəmiyyət arasında rəqəmsal maarifləndirmənin gücləndirilməsinin vacib olduğu qeyd edilib".

**Elektron Təhlükəsizlik Xidmətinin Əməkdaşlıq və Kommunikasiya sektorunun müdiri Həvva Hüseynli isə bildirib ki, qanun layihəsi əsasən kütləvi məzmun paylaşımı və geniş əlaqə imkanları yaradan sosial media platformalarını əhatə edir. Onun sözlərinə görə, qanun layihəsində bütün sosial şəbəkələrə məhdudiyyətlərin tətbiqi nəzərdə tutulmur:** "Burada yaş məhdudiyyəti tətbiq edilən sosial media platformaları anlayışı xüsusi yer alır. Müvafiq dövlət qurumları həmin siyahını formalaşdıracaq. Uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi, eləcə də təhsil, səhiyyə və işgüzar fəaliyyətlərə çıxış məhdudlaşdırılmayacaq".

**Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəşad Həsənov bildirib ki, Azərbaycanda məktəbyaşlı uşaqların 64 faizi sosial mediadan aktiv istifadə edir və onlar gündə 5 saatdan çox vaxtını rəqəmsal platformalarda keçirirlər:** "İstifadə daha çox "TikTok" və "WhatsApp" üzərindən həyata keçirilir. Valideynlərin 43 faizi isə övladlarının sosial media istifadəsinə nəzarət edə bilmədiyini etiraf edir. Layihənin məqsədi sosial medianı qadağan etmək deyil, uşaqlar üçün daha təhlükəsiz mühit yaratmaqdır. Bu çərçivədə 16 yaşadək şəxslərin sosial mediadan istifadəsinə məhdudiyyət, 16–18 yaş aralığında isə valideyn razılığı ilə istifadə nəzərdə tutulur. Eyni zamanda "sonsuz sürüşdürmə" kimi istifadəçini platformada uzun müddət saxlamağa yönələn funksiyalara da məhdudiyyətlərin tətbiqi planlaşdırılır".

**Sözügedən tədbirdə iştirak etdiyini xatırladan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Fərid Pərdəşünas sosial media qanunu ilə bağlı detallara diqqət çəkib. O, "Şərq"ə bildirib ki, təklif olunan qanun layihəsi əsasən sosial media platformalarının Azərbaycanda daha ciddi hüquqi çərçivəyə salınmasını hədəfləyir:** "Yeni yanaşmaya görə, xarici platformalar ölkədə fəaliyyət göstərmək üçün rəsmi qeydiyyatdan keçməli, filial və ya əlaqə mərkəzi yaratmalı, Azərbaycan dilində operativ kommunikasiya təmin etməlidirlər. Qanun layihəsi hazırlanarkən aidiyyəti qurumlar qlobal sosial media şirkətlərini məlumatlandırıblar. Onlar da əməkdaşlığa hazır olduqlarını bildiriblər. Qanun qüvvəyə mindikdən sonra onun icrası üçün sosial media platformalarına 12 ay vaxt veriləcək. Yəni əgər "Meta", "Google" və "TikTok" kimi platformalar bu qanunun tələblərinə əməl etsələr, Türkiyədə olduğu kimi Bakıda da onların ofisləri açılacaq və Azərbaycan dilində dəstək xidmətləri yaradılacaq. Qanun pozuntularına qarşı mərhələli sanksiya mexanizmi də nəzərdə tutulur. İlk mərhələdə xəbərdarlıq, daha sonra 100 min və 300 min manatadək inzibati cərimələr tətbiq olunur. Tələblər yerinə yetirilmədiyi halda iqtisadi məhdudiyyətlərə - o cümlədən reklam gəlirlərinin bloklanmasına və bank köçürmələrinin məhdudlaşdırılmasına qədər gedən tədbirlər planlaşdırılır. Son mərhələdə isə ciddi pozuntular davam edərsə, məhkəmə qərarı ilə mərhələli şəkildə internet trafikinin azaldılması nəzərdə tutulur".

**F.Pərdəşünas qeyd edib ki, layihənin diqqət çəkən hissələrindən biri də platformaların dizayn və funksional məsuliyyətidir:** "Sonsuz sürüşdürmə", avtomatik videooynatma kimi istifadəçini platformada daha uzun saxlamağa xidmət edən xüsusiyyətlərin məhdudlaşdırılması tələb olunur. Bu, xüsusilə uşaqların rəqəmsal asılılıq riskinin azaldılması məqsədi daşıyır. Burada əsas prinsip ondan ibarətdir ki, dövlət birbaşa şəxsi məlumatlara müdaxilə etmir, məsuliyyət platformaların üzərinə qoyulur və onlar yetkinlik yaşına çatmayanların sistemə daxil olmasının qarşısını almalıdırlar. Vəsiqə və ya "mygov" tələbi olmayacaq. Platformalar istifadəçiləri mobil nömrə, e-poçt ünvanı və bank kartı məlumatları vasitəsilə identifikasiya etdikdən sonra həmin məlumatları dərhal siləcəklər. Bu metod bir çox ölkədə özünü doğruldub və böyük şirkətlər qanunvericiliyin tələblərinə uyğun fəaliyyət göstəriblər. Azərbaycan isə bu günə qədər kiçik bazar kimi qiymətləndirilirdi və onlar iqtisadi baxımdan bu bazara kifayət qədər önəm vermirdilər. Bundan sonra isə qanun onları buna məcbur edəcək. Lakin bütün bunlar praktikada, təbii ki, yayınma hallarının tam qarşısını ala bilməz. Sonda məsuliyyət yenə də valideynlərin və ailələrin üzərinə düşəcək. Davamlı maarifləndirmə işi də bu proseslə paralel şəkildə mütləq aparılmalıdır".

**Şəymən Bayramova**

# Mətbuat Şurasında mühüm qanun layihəsi müzakirə olundu



**Dünən Mətbuat Şurasında ictimai müzakirə keçirilib.**

Mətbuat Şurasının təşəbbüsü ilə "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası qanunu layihəsinin ictimai müzakirəsi keçirilib.

Mətbuat Şurasının sədri Rəşad Məcid bildirib ki, sözügedən qanunvericilik təşəbbüsləri, ilk növbədə, Azərbaycanın hüquqi bazasının zənginləşdirilməsinə töhfədir.

**Onun sözlərinə görə, məsələ cəmiyyətdə məsuliyyət mexanizmlərinin genişləndirilməsini nəzərdə tutur ki, bu da müsbət haldır:** "Çünki virtual məkanın cəzasızlıq, hətta, bəzən özbaşınalıq mühiti kimi təsəvvürə gətirilməsi tendensiyası hiss olunmaqdadır. Mövcud tendensiya və ondan irəli gələn hərəkət və davranışlar isə həm informasiya təhlükəsizliyinə təhdid yaradır, həm də mənəvi baxımdan bir sıra problemlər doğurur. Təcrübə göstərir ki, belə problemlərin gərginlik formalaşdırma ehtimalı var".

Mətbuat Şurası İdarə Heyətinin üzvü, Şuranın Sosial media ilə əlaqələr komissiyasının sədri Hacıbəy Heydərli bildirib ki, sosial media platformalarında qeyri-etik hərəkət və davranışlar məsələsi cəmiyyətdə geniş müzakirə olunmaqdadır.

Toplantıda çıxış edənlər sosial media platformalarının cəmiyyət həyatına virtual deyil, real şəkildə nüfuz etdiyini və mövcud vəziyyətin qanunvericilik müstəvisində də təsbit olunmasının vacibliyini əsaslandırıblar. Onlar bu baxımdan "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası qanunu layihəsinin əhəmiyyətini yüksək qiymətləndiriblər.

Eyni zamanda çıxış edənlər layihənin məsuliyyət hissinin dərinləşməsinə töhfə olacağına əminliklərini ifadə edib, sosial şəbəkələrlə bağlı bəzi digər məsələlərin tənzimlənməsi üçün istər maarifləndirici tədbirlərin görülməsinin, istərsə də hüquqi və institsional addımların atılmasının zəruriliyinə diqqət çəkib, konkret misallar üzərində dayanıblar.

# İqtisadi Şurada müzakirə aparılıb



**Dünən İqtisadi Şuranın iclası keçirilib.**

Bu barədə Nazirlər Kabinetindən xəbər verilib.

Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən İqtisadi Şuranın iclasının gündəliyində Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin təşkili ilə bağlı görülmüş işlər, həlli vacib infrastruktur məsələləri, strateji baxış və inkişaf perspektivləri, eləcə də Xidmət sektorunun iqtisadi artımda rolu və inkişaf potensialı, Xidmət sektorunda müəyyən edilmiş prioritet istiqamətlər və təkliflər və digər cari məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələlər üzrə Prezidentin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, iqtisadiyyat naziri Mikayıl Cabbarovun təqdimatları dinlənilib. Təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və Ələt Azad İqtisadi Zonasının İdarə Heyətinin sədri Valeh Ələsgərov çıxış ediblər.

İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təkliflər nəzərə alınmaqla müvafiq qərarlar qəbul olunub və aidiyyəti qurumlara tapşırıqlar verilib.



# Konstitusiya dəyişmədən sülh sazişi sadəcə kağız parçası olacaq

## **Elmar Məmmədyarov:** "Paşinyan Azərbaycanın şərtini yerinə yetirmək üçün alternativ yollar axtarmalıdır"

**Parlament seçkilərindən öncə siyasi dairələr, Ermənistan xalqının taleyini düşünürdü. İyunun 7-də açıqlanan nəticələr isə bu düşüncəni başqa istiqamətə yönləndirdi. Hazırda proseslər xalqdan ziyadə, Paşinyanın taleyinin necə olacağı üzərində düyünlənib.**

Çünki Baş nazirin "Vətəndaş Müqaviləsi" Partiyası konstitusion çoxluğa çata bilmədi. Bu da Paşinyan hökumətinin konstitusiya dəyişikliyi edə bilməyəcəyi anlamına gəlir. Paşinyan Azərbaycanla sülh naminə hansı vədləri verirsə-versin, parlamentdəki səs çatışmazlığı onun hüquqi iradəsini məhdudlaşdırır. Hazırda Paşinyan hökumətini çıxılmaz vəziyyətə salan əsas kilid məqam məhz bunun üzərində dayanır.

**Mövzu ilə bağlı sabiq xarici işlər naziri Elmar Məmmədyarov "Şərq"ə bildirib ki, konstitusion çoxluqdan məhrum olmaq Paşinyana başağrısı gətirəcək:** "O, artıq Azərbaycanın irəli sürdüyü konstitusiya dəyişikliyini reallaşdırmaq üçün alternativ yollar axtarmalıdır. Çünki yekun sülh sazişinə gedən yol kontitusiya dəyişikliyindən keçir. Konstitusiya dəyişikliyi həyata keçirmək üçün ilk növbədə referendum baş tutmalıdır. Parlament seçkilərində toplanan səslərin yenidən hesablanması sabah başa çatacaq. Azərbaycanla Ermənistan arasında imzalanacaq sülhün taleyi parlament seçkilərinin nəticələrdən asılıdır".

**Sabiq nazirin sözlərinə görə, referendumun keçirilməsi son dərəcə mürəkkəb prosesdir:** "İlk növbədə, hazırlanmış layihə ölkənin hüquqi prinsiplərinə uyğunluğunun yoxlanılması üçün Konstitusiya Məhkəməsinə göndərilir. Əgər məhkəmədən müsbət rəy gələrsə, sənəd yenidən parlamentə qayıdır. Konstitusiya tələbi yerinə yetirilmədən, sülh sazişi imzalana bilməz. Çünki Konstitusiya dəyişmədən imzalanan saziş, sadəcə kağız parçası olaraq qalacaq".

**E.Məmmədyarov, Avropa İttifaqı və Paşinyan hökumətinin seçki prosesində saxtakarlığa yol verməsi barədə yayılan iddialara da münasibət bildirib:** "Administrativ resursların seçkilərə təsiri qlobal bəlaya çevrilib. Nəinki Ermənistan, hətta ABŞ və Avropa İttifaqı kimi demokratik sistemlərdə belə, səsvermə prosesində administrativ imkanlar siyasi məqsədlərə alət edilir. Ermənistanda seçici fəallığının 60 faiz təşkil etməsi, nəticənin necə olacağını öncədən göstərirdi. Təsəvvür edin ki, 40 faizə yaxın vətəndaş səsvermədə iştirak etməyib. Vətəndaşlar arasında seçkilərə qarşı apatiya müşahidə olunur. Əgər xalq səsvermə günü evində qalmağı üstün tutursa, bu onların hökumətə və digər siyasi qüvvələrə etimad etmədiyini göstərir".

**Aybəniz**

# İran parlamentinin sədri ABŞ-a xəbərdarlıq edib

## "Siz fərqli bir İran görəcəksiniz", - deyə Qalibaf vurğulayıb.

**İran parlamentinin sədri Məhəmməd Bager Qalibaf ABŞ-a və onun müttəfiqlərinə xəbərdarlıq edərək bildirib ki, yanlış strategiyalar və tələsik qərarlar regionda vəziyyəti daha da ağırlaşdıracaq.**



APA xəbər verir ki, Qalibaf bu barədə "X" sosial şəbəkəsində paylaşım edib.

"Yanlış strategiyalar və düşünülməmiş qərarlar bütün vəziyyəti daha pis istiqamətə dəyişəcək, enerji infrastrukturunu və bazarları sarsıdacaq, sizi illərlə içində qalacağınız sonsuz bir bataqlığa sürükləyəcək", - deyə o qeyd edib.

İran parlamentinin sədri əlavə edib ki, belə addımların nəticəsində beynəlxalq ictimaiyyət fərqli bir İranla qarşılaşacaq.

"Siz fərqli bir İran görəcəksiniz", - deyə Qalibaf vurğulayıb.



# Paşinyan konstitusion çoxluqdan məhrum oldu

## Paşinyanın əl-qolu bağlanır, konstitusiya islahatı mümkün deyil

**İyunun 7-də Ermənistanda parlament seçkilərinə keçirilən səsvermə prosesi gözlənilməz sonluqla nəticələndi. Baş nazir Nikol Paşinyanın "Vətəndaş müqaviləsi" Partiyası, 49.81 faiz səs toplayıb. O, rəqiblərindən fərqlənsə də, Konstitusion çoxluğundan məhrum oldu.** Kreml dairələrinin təbirincə desək, Paşinyanın hakimiyyətə gəlişindən bəri hədəf taxtasına çevrilən erməni oliqarx Qaqik Sarukyanın, "Çiçəklənən Ermənistan" Partiyasının cəmi 4 faiz səs toplaması, müxalif qüvvələrlə Rusiyanı çilədən çıxarıb. Ermənistan mətbuatı səsvermə boyunca hakim partiyanın seçkilərdə pozuntulara yol verdiyini, hətta bu səbəbdən bir neçə nəfərin həbs edildiyini yazıb. Hazırda müxalif blokla, Rusiya arasında sıxışıb qalan Paşinyan bütün ümidlərini iyunun 14-nə dikib. Çünki Ermənistan MSK-nın sədri Vaaqn Hovakimyan, seçkilərin nəticələrini məhz həmin gün açıqlayacağını bildirib. Sədrin sözlərinə görə, İrəvandakı bütün seçki məntəqələrində səslər yenidən hesablanacaq.

Bəs yeni hesablamalar hakim partiyanın səslərinə əks təsir göstərə bilərmi?

**Mövzu ilə bağlı politoloq Sahil İsgəndərov "Şərq"ə bildirib ki, Ermənistandakı seçkilərlə bağlı əsas problem "Çiçəklənən Ermənistan" Partiyası üzərində düyünlənib:** "Rusiya bunu rəsmi qaydada bildirməsə də, ekspertlər səviyyəsində Q.Sarukyanın topladığı səslərin doğruluğuna dair şübhələr var. Təsəvvür edin ki, bu partiya parlamentə keçmək üçün lazım olan seçki baryerini 0,01 faiz fərqlə keçə bilməyib. Əgər bu nəticəyə çatsaydı, partiya parlamentə keçərək, müəyyən sayda mandat əldə etmək imkanı qazanacaqdı. Səslər yenidən hesablanarkən, saxtakarlığa aid məqamlar aşkar edildikdə, Paşinyana ciddi zərbə dəyəcək. Hakim partiya, təkbaşına hökumət formalaşdıra bilməyəcəyinə görə digər partiyalarla birləşməyə məcburdur".

**Politoloqun sözlərinə görə, üç müxalif partiyanın Paşinyanla koalisiya qurması imkansızdır:** ""Vətəndaş müqaviləsi" Partiyasının üstün mövqe sərgiləməsini texniki qələbə adlandırıram. Rusiya artıq istəyinə çatıb. Səslərin yenidən hesablanması barədə çıxarılan qərar, Moskvanın təzyiqlərindən qaynaqlanır. Hakim partiya, parlamentdə çoxluq əldə etsə də, konstitusion çoxluğa çata bilmədi. 105 yerlik parlamentdə 61 mandat qazandılar. Halbuki konstitusion çoxluq üçün ən azı 70 mandat tələb olunur. Konstitusion çoxluq hökumətə hüquqi və siyasi məsələlərdə daha geniş imkanlar verəcəkdi. Bu hüquq Paşinyan hökumətinə gələcəkdə Avropa İttifaqına üzvlüklə bağlı referendum keçirmək üçün qapı açacaqdı".

**S.İsgəndərov, seçkidə rəqiblərini üstələyən Paşinyanın bu vaxta qədər Putin tərəfindən təbrik edilməməsinin səbəblərini şərh edib:** "Bunun Rusiyanın Ermənistanın əleyhinə mövqe sərgiləməsi ilə əlaqəsi yoxdur. Putin, Paşinyanı təbrik etmək üçün seçki prosesinin hüquqi baxımdan tam yekunlaşmasını gözləyir. O, Paşinyan hökuməti ilə pərdəarxası söhbətlər apararaq, vəziyyəti öz xeyrinə dəyişməyə çalışacaq. Onu da nəzərə almaq lazımdır ki, Nikol səsvermədən sonra qalib gələcəyi təqdirdə, Rusiyaya səfər edəcəyini açıqlamışdı. Moskva "Çiçəklənən Ermənistan" Partiyasını parlamentə daşımaq üçün İrəvanla gizli sövdələşmələr aparmağa çalışır. Bu planın pərdəarxasında böyük risklər gizləndiyinə görə, Paşinyanın belə bir məsələ ilə razılaşma ehtimalı aşağıdır".

**Analitikin fikrincə, müxalif qüvvələrin irəli sürdüyü arqumentlər əsaslı görünür:** "Paşinyan tərəzinin gözünü öz xeyrinə çevirmək üçün inzibati resurslardan yararlanıb. Faktiki olaraq ən çox səs toplayan onun partiyası oldu. Ermənistanda bu günə qədər heç bir seçki şəffaf və demokratik əsaslarla keçirilməyib. Xislətində saxtakarlıq olan insanlardan, seçkilərdə şəffaflıq gözləmək çətindir. İrəvan mətbuatı səsvermə zamanı qeydə alınan pozuntulardan bəhs edir, həbs xəbərlərini manşetlərə daşıyırdı. Avropa dairələri bu faktlara rəğmən, seçkilərin "demokratik səviyyədə" keçdiyini bəyan edirdilər".

**Politoloq vurğulayıb ki, Paşinyanla Avropa İttifaqının niyyətləri eyni nöqtədə kəsişdiyi üçün, ölkədə baş verən bütün pozuntulara göz yumdular:** "Ermənistandakı seçkiönü kampaniyaların gedişində, səsvermənin ölkənin və xalqın gələcəyi üçün taleyüklü mərhələ olduğu aşılanır. Həqiqət isə ondan ibarətdir ki, bu proses sadəcə Rusiya və Avropa İttifaqı arasında geosiyasi seçim alətinə çevrilib. Doğrudur, Paşinyanın parlamentdə çoxluq əldə etməsi, Azərbaycanı qane edir. Lakin onun konstitusion çoxluqdan məhrum olması, əl-qolunu bağlayır. Çünki Nikol Azərbaycanın sülh müqaviləsi üçün əsas şərt olaraq tələb etdiyi Konstitusiya dəyişikliyini həyata keçirə bilməyəcək".

**S.İsgəndərovun qənaətinə görə, Paşinyan seçkilərə qədər çox rahatlıqla, Azərbaycanın şərtini yerinə yetirə bilərdi:** "Öhdəliklərin icrasının gecikdirilməsi, onların sülhə olan səmimiyyətinə kölgə salır. Azərbaycan əslində Ermənistanın tam müstəqil dövlət olmasını hamıdan çox arzulayır. Çünki "ağası" olmayan Ermənistanla dil tapmaq, ən qəliz məsələləri belə həll etmək asan olacaq. Problem ondadır ki, İrəvanın geosiyasi himayədarları işə qarışan kimi vəziyyət çıxılmaz hal alır".

**Aybəniz Səfərova**



# MEDİA-dan gənclərə böyük fürsət

## 42 könüllü sertifikat aldı, yeni mərhələ başladı

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində "MEDİA Könüllüləri" proqramının məzunları və növbəti könüllülük proqramına seçilən gənclərlə görüş keçirilib.**

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Agentliyin gənclərin peşəkar inkişafına yönəlmiş fəaliyyətindən, könüllülük proqramının əhəmiyyətindən və media sahəsində kadr potensialının gücləndirilməsi istiqamətində həyata keçirilən təşəbbüslərdən danışıb. O, proqramı uğurla yekunlaşdıran könüllülərin Agentliyin müxtəlif layihə və tədbirlərində fəal iştirakını yüksək qiymətləndirib, əldə olunan təcrübənin gələcək peşə fəaliyyətlərində gənclər üçün mühüm üstünlük olacağını qeyd edib.

Növbəti - onuncu könüllülük proqramının iştirakçıları ilə tanışlıq olub, proqramın fəaliyyət istiqamətləri, nəzərdə tutulan təlimlər və qarşıdakı dövr ərzində həyata keçiriləcək fəaliyyətlər barədə məlumat verilib. İştirakçıların fikir və təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

*Sonda "MEDİA könüllüləri" Proqramını müvəffəqiyyətlə başa vuran 42 gəncə sertifikatlar təqdim olunub.*

# Tramp İrana hücum planını ləğv etdi

## Sazişin imzalanacağı yer və vaxt tezliklə açıqlanacaq



**ABŞ Prezidenti Donald Tramp İranla əldə olunması gözlənilən sazişin imzalanacağı yer və vaxtın yaxın zamanda açıqlanacağını bildirib.**

Tramp "Truth Social" hesabında paylaşdığı mesajda "İmzalanma mərasiminin vaxtı və yeri tezliklə elan ediləcək" ifadələrini işlədib.

ABŞ lideri sazişin detalları və ya imzalanma tarixinin dəqiq nə vaxt açıqlanacağı barədə əlavə məlumat verməyib.

Qeyd edək ki, Tramp bir az əvvəl İrana qarşı genişmiqyaslı hərbi əməliyyatlar həyata keçirə biləcəklərini bəyan etsə də, sonradan planlaşdırılan zərbələrin dayandırıldığını açıqlamışdı. Hazırda Vaşinqton və Tehran arasında mümkün razılaşma ilə bağlı gözləntilər davam edir.

ABŞ lideri həmçinin gələcəkdə İranın əsas neft ixrac mərkəzi hesab olunan Xark adası və digər enerji infrastrukturu obyektləri üzərində nəzarət qurulmasının mümkünlüyündən danışıb.

Tramp daha sonra "Fox News" telekanalına açıqlamasında İranın hərbi potensialının ciddi şəkildə zəiflədiyini iddia edib və Vaşinqtonun quru əməliyyatı keçirmək niyyətində olmadığını bildirib. O, hərbi əməliyyatların mülki əhali üçün ağır nəticələr doğura biləcəyini vurğulayaraq kritik infrastrukturun hədəfə alınmasına ehtiyatla yanaşdığını deyib.

Qeyd edək ki, Xark adası İranın neft ixracının təxminən 90 faizinin həyata keçirildiyi əsas enerji qovşağı hesab olunur və ölkənin iqtisadiyyatı üçün strateji əhəmiyyət daşıyır.

Trampın son açıqlamaları ABŞ-İran münasibətlərində həm hərbi təzyiq, həm də diplomatik manevr elementlərinin paralel şəkildə davam etdiyini göstərir. Bir tərəfdən Vaşinqtonun İrana qarşı hərbi imkanlarını nümayiş etdirməsi, digər tərəfdən isə planlaşdırıldığı iddia edilən hücumların dayandırılması Ağ Evin hələ də danışıqlar masasına üstünlük verdiyi barədə mesaj kimi qiymətləndirilə bilər.

Analitiklərin fikrincə, Tramp administrasiyası İranı güzəştlərə məcbur etmək üçün "maksimum təzyiq" strategiyasının yeni formasını tətbiq edir. Bu strategiyada hərbi əməliyyat ehtimalının gündəmdə saxlanılması danışıqlarda əlavə təsir aləti rolunu oynayır. Lakin belə yanaşma regionda onsuz da kövrək olan təhlükəsizlik balansını daha da həssas vəziyyətə gətirir.

Xüsusilə Xark adasının adının çəkilməsi diqqət çəkən məqamlardan biridir. İran neft ixracının böyük hissəsinin bu məntəqə üzərindən həyata keçirilməsi səbəbindən burada yaranacaq hər hansı təhlükə yalnız İran iqtisadiyyatına deyil, qlobal enerji bazarlarına da təsir göstərə bilər. Bu baxımdan enerji infrastrukturu ətrafında səsləndirilən bəyanatlar beynəlxalq bazarlarda da diqqətlə izlənilir.

Bununla yanaşı, Trampın quru əməliyyatına ehtiyac olmadığını vurğulaması Vaşinqtonun mümkün qarşıdurmanı məhdud çərçivədə saxlamağa çalışdığını göstərə bilər. ABŞ-ın əvvəlki hərbi kampaniyalarının yaratdığı siyasi və maliyyə yükü nəzərə alındıqda, yeni genişmiqyaslı müharibənin həm daxili, həm də beynəlxalq səviyyədə ciddi müzakirələr doğuracağı istisna edilmir.

Siyasi müşahidəçilər hesab edirlər ki, hazırkı mərhələdə tərəflər arasında qarşılıqlı hədələr və sərt bəyanatlar davam etsə də, əsas mübarizə diplomatik müstəvidə gedir. Əgər danışıqlar həqiqətən yekun razılaşma mərhələsinə yaxınlaşıbsa, bu, regionda gərginliyin müəyyən qədər azalmasına şərait yarada bilər. Bununla belə, ABŞ və İran arasında uzun illərdir formalaşmış etimadsızlıq mühiti səbəbindən əldə olunacaq hər hansı razılaşmanın dayanıqlılığı hələ də əsas sual olaraq qalır.

Məhz buna görə də Yaxın Şərqdə vəziyyətin yaxın perspektivdə tam sabitləşəcəyini gözləmək çətindir. Trampın hücumları dayandırmaq qərarı hərbi eskalasiyanın qarşısını alan müvəqqəti addım kimi qiymətləndirilsə də, regionda geosiyasi rəqabət və strateji maraqlar toqquşması davam etdiyindən yeni gərginlik ocaqlarının yaranması ehtimalı qalmaqdadır.

**Turan**

# Çiy ət və dəfn mərasimləri

## Virus sağaldıqdan sonra belə orqanizmdə "gizli qala" bilər






### "Yollarda gəzərkən ağaclardan meyvə dərib, yuyulmamış vəziyyətdə yeməyin. Küçə heyvanları ilə yaxın təmasdan çəkinmək lazımdır"

**Qlobal səhiyyə sistemi, Hantavirus təhlükəsinin yaratdığı gərginliyi tam sovuşdurmamış, daha amansız virusa qarşı yeni cəbhə açmaq məcburiyyətində qalıb. May ayından etibarən Konqo Demokratik Respublikasında Ebola epidemiyasının yeni yayılma halı qeydə alınıb.**

Dəhşətlisi isə odur ki, hər keçən ay virusun yoluxma nisbəti də yüksəlir. Yoluxma hallarının sayı son 24 saat ərzində əhəmiyyətli dərəcədə artaraq, 452-yə çatıb. Ebolanı digər viruslardan fərqləndirən ən təhlükəli xüsusiyyət, yüksək ölüm göstəricisinə malik olmasıdır. Xəstəliyin orta ölüm nisbəti 50 faiz qiymətləndirilsə də, Konqoda bəzi epidemiyalar zamanı bu göstərici 19,2 faiz təşkil edib. Artıq ölənlərin sayı 115 nəfəri ötüb. Kabusa çevrilən virusun yenidən baş qaldırması qlobal təşvişə səbəb olub.

**Mövzu ilə bağlı infeksionist-hepatoloq Mərdan Əliyev "Şərq"ə bildirib ki, Ebola virusu insandan insana yalnız yaxın təmas yolu vasitəsilə keçir:** "COVID-19-dan fərqli olaraq, Ebola virusu hava-damcı yolu ilə yayılmır. Eboladа yoluxma yalnız xəstənin bədən mayeləri ilə yaxın təmas zamanı baş verir. Bu virusun COVID-19 kimi qlobal pandemiyaya çevrilmə ehtimalı çox aşağıdır. Ebola əsasən regional və lokal kütləvi yoluxmalar şəklində yayılır. Sağlam insan, virus daşıyıcısının qanı, tüpürcəyi, təri və nəcisi ilə hər hansı bir formada təmasda olduqda, yoluxma baş verir. Əgər əlinizə xəstənin tüpürcəyi, təri bulaşıbsa və siz fərqində olmadan əlinizi gözünüzə, burnunuza və ya ağzınıza vursanız, virus dərhal selikli qişalardan keçərək bədənə daxil olacaq".

**Həkimin sözlərinə görə, ən dəhşətlisi isə odur ki, insan tam sağalsa belə, virus immun sisteminin çata bilmədiyi bəzi gizli nöqtələrdə aylarla canlı qalır:** "Ana tam sağalsa belə, virus süd vəzilərində uzun müddət aktiv qala bilər. Belə vəziyyətdə, körpəni əmizdirmək, virusun süd şirəsi vasitəsilə birbaşa uşağın həzm sisteminə keçməsinə şərait yaradır. Xəstəliyə yoluxan insanlar ilkin mərhələdə, yüksək qızdırma, şiddətli baş ağrısı, oynaq və əzələlərdə dözülməz ağrılarla qarşılaşır. Virus bədəndə çoxaldıqca, daxili orqanları zədələməyə başlayır. Diş ətlərindən tutmuş burun, qulaq və mədə-bağırsağa qədər hər yerdən qan gələ bilər. Xəstədə qan qusma, nəcisdə qan görünməsi kimi çox ağır simptomlar müşahidə olunur".

**M.Əliyev qeyd edib ki, Ebolanın heyvanlardan, xüsusilə də yarasa və meymunlardan insanlara keçmə ehtimalı yüksəkdir:** "İnsanlar bu virusa ən çox yarasaların təmas etdiyi meyvələri yumadan yedikdə, yoluxmuş heyvanların ətini kəsərkən qanına toxunduqda və ya bu ətləri çiy, yaxşı bişirilməmiş vəziyyətdə yedikdə yoluxurlar. Ebolanın ən təhlükəli xüsusiyyətlərindən biri xəstənin vəfatından sonra da yoluxduruculuğunu qorumasıdır. Dəfn mərasimində cəsədlə edilən hər bir vida toxunuşu, virusun yeni bədənlərə köç etməsinə yol açır. Ebolaya qarşı vaksinlər mövcud olsa da, SVD və BVD kimi digər ştammları üçün təsdiqlənmiş peyvənd yoxdur. Əgər gələcəkdə epidemioloji vəziyyət ağırlaşarsa, yeni və daha effektiv vaksinlərin yaradılması qaçılmaz olacaq".

**Həkim səyahətə çıxan vətəndaşlara bəzi qaydalara əməl etməyi tövsiyə edib:** "Yollarda gəzərkən ağaclardan meyvə dərib, yuyulmamış vəziyyətdə yeməyin. Küçə heyvanları ilə yaxın təmasdan çəkinmək lazımdır. Onların dərinizi dişləməsi və ya dırnaqlaması virusun keçməsinə səbəb ola bilər. Çöldə olarkən, çirkli əllərinizi qətiyyən gözünüzə, burnunuza və ağzınıza vurmayın. Əllərinizi sabunla yumadan qidalanmaq olmaz. Evə qayıtdıqda isə gigiyenik vasitələrlə yaxşıca duş almağı tövsiyə edirəm".

**Aybəniz Səfərova**




atlar əsasən ayrı-ayrı bölgələrdə aparıldığı və ölkənin coğrafi baxımdan geniş əraziyə malik olduğu üçün insanlar daha çox ölkə daxilində yer dəyişməyə üstünlük verirdi. Bu səbəbdən İraq müharibəsi dövründə Suriyada olduğu kimi milyonlarla insanın eyni vaxtda qonşu ölkələrə axını müşahidə edilmədi. Suriyada isə vəziyyət fərqli idi. Müharibənin demək olar ki, bütün ölkə ərazisini əhatə etməsi, təhlükəsiz zonaların azalması və uzunmüddətli qarşıdurmalar nəticəsində milyonlarla insan ölkəni tərk etmək məcburiyyətində qaldı və regionda böyük qaçqın böhranı yarandı. İranda hazırkı mərhələdə genişmiqyaslı quru əməliyyatları real görünmür. Lakin belə bir senari baş verərsə və paralel olaraq ölkə daxilində vətəndaş qarşıdurması yaranarsa, bu halda qonşu dövlətlərə, o cümlədən region ölkələrinə doğru kütləvi miqrasiya axını ehtimalı arta bilər".

# İranda quru əməliyyatlar başlayarsa, Azərbaycana qaçqın axını qaçılmazdır

## Qonşu dövlətlərin təhlükəsizlik, humanitar və miqrasiya siyasətini koordinasiyalı şəkildə həyata keçirməsi xüsusi əhəmiyyət daşıyır

**Müstəqil Dövlətlər Birliyi Antiterror Mərkəzi rəhbəri general-polkovnik Yevgeni Sısoyev bildirib ki, Ermənistan, Türkmənistan və Azərbaycan Yaxın Şərqdəki vəziyyət səbəbindən miqrasiya böhranı riski ilə üzləşə bilər.**

Onun sözlərinə görə, bölgədə gərginliyin artması genişmiqyaslı miqrasiya axınları və humanitar böhran üçün zəmin yaradır. Sısoyev bu proseslərin Liviya və İraqda yaşanan böhranlara bənzər nəticələr doğura biləcəyini qeyd edib.

**Mövzu ilə bağlı fikirlərini bölüşən Milli Məclisin deputatı, Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması" İctimai Birliyinin sədri və Miqrasiya Əməkdaşlıq Platformasının rəhbəri Azər Allahverənov "Şərq"ə bildirib ki, hər hansı ölkənin yerləşdiyi regionda və ya qonşuluğunda hərbi münaqişələrin baş verməsi qaçılmaz şəkildə miqrasiya axınlarına səbəb olur. Onun sözlərinə görə, tarixdə bunun çoxsaylı nümunələri müşahidə edilib:** "Xüsusilə Suriya və İraqda baş verən müharibələr zamanı milyonlarla insan öz yaşayış yerlərini tərk etmək məcburiyyətində qaldı və əsas miqrant və qaçqın axını qonşu ölkələrə, ilk növbədə Türkiyəyə yönəldi. Bu proseslər region ölkələri üçün həm sosial, həm iqtisadi, həm də təhlükəsizlik baxımından ciddi çağırışlar yaratdı. Vətəndaş müharibələri, xarici müdaxilələr və genişmiqyaslı hərbi əməliyyatlar nəticəsində insanların kütləvi şəkildə məcburi köçkün və qaçqın vəziyyətinə düşməsi müasir dövrdə ən ciddi humanitar problemlərdən biridir. 20-ci və 21-ci əsrlərdə baş verən silahlı münaqişələr zamanı bu tendensiya dəfələrlə özünü göstərib".

Deputat hesab edir ki, Yaxın Şərqdə gərginliyin artması fonunda region ölkələrinin mümkün miqrasiya risklərinə qarşı hazırlıqlı olması vacibdir. Bu baxımdan Azərbaycan da daxil olmaqla qonşu dövlətlərin təhlükəsizlik, humanitar və miqrasiya siyasətini koordinasiyalı şəkildə həyata keçirməsi xüsusi əhəmiyyət daşıyır: "Müstəqil Dövlətlər Birliyi Antiterror Mərkəzinin apardığı nəzəri araşdırmalarda Azərbaycan, Türkmənistan və Ermənistanın adının çəkilməsi ABŞ-İsrail blokunun İrana qarşı mümkün hərbi müdaxiləsi nəticəsində yarana biləcək miqrasiya və qaçqın axını riskləri ilə əlaqələndirilib. Yaxın Şərqdəki gərginliyin potensial nəticələri Yevgeni Sısoyevin açıqlamasında da açıq şəkildə vurğulanıb. Lakin bu senarinin nə dərəcədə real olmasına gəldikdə, nəzərə almaq lazımdır ki, İran və İsrail arasında son dövrlərdə yaşanan qarşıdurmalar əsasən hava hücumları və qarşılıqlı raket zərbələri ilə müşayiət olunub. Məsələn, ötən il baş verən 12 günlük müharibə və son aylardakı qarşıdurmalar zamanı tərəflər əsasən hərbi hava qüvvələri vasitəsilə zərbələr endiriblər. Baxmayaraq ki, müəyyən mərhələlərdə quru əməliyyatlarının mümkünlüyü ilə bağlı mesajlar səsləndirilirdi, praktikada belə bir müdaxilə baş vermədi. Halbuki tarix göstərir ki, kütləvi qaçqın və miqrasiya axınları daha çox genişmiqyaslı quru əməliyyatları, şəhər döyüşləri və uzunmüddətli hərbi işğallar zamanı yaranır. Bu baxımdan hazırkı mərhələdə region ölkələri üçün ciddi miqrasiya təhlükəsinin formalaşdığını söyləmək çətin olsa da, Yaxın Şərqdə vəziyyətin daha da gərginləşməsi ehtimalı ehtiyatlı yanaşmanı və mümkün risklərin əvvəlcədən qiymətləndirilməsini zəruri edir".

**Birlik sədri qeyd edib ki, vətəndaş müharibələri və xarici hərbi müdaxilələr zamanı insanlar ilk növbədə öz ölkələrinin daxilində daha təhlükəsiz bölgələrə sığınmağa çalışırlar. Yalnız ölkə daxilində təhlükəsiz məkan qalmadıqda və ya müharibə geniş əraziləri əhatə etdikdə miqrasiya axını qonşu dövlətlərə yönəlir və kütləvi xarakter alır. Onun sözlərinə görə, bunun fərqli nümunələri Yaxın Şərqdə baş verən müharibələr zamanı müşahidə olunub:** "Məsələn, İraqda hərbi əməliyyatlar əsasən ayrı-ayrı bölgələrdə aparıldığı...

**Deputat vurğulayıb ki, miqrant axını ilə ölkəyə gələn şəxslərlə sığınacaq almaq məqsədilə müraciət edən qaçqınların hüquqi statusu bir-birindən fərqlənir. Onun sözlərinə görə, Azərbaycan miqrasiya mübadiləsinin intensiv olduğu ölkələrlə daim müəyyən miqrasiya axınları ilə qarşılaşır və müxtəlif məqsədlərlə insanlar dövlət sərhədini keçərək ölkə ərazisinə daxil olurlar:** "1951-ci il Qaçqınların Statusu haqqında Konvensiyaya əsasən, xarici ölkədə sığınacaq axtaran şəxslər "qaçqın" və ya "sığınacaq axtaran şəxs" statusu daşıyırlar və onların qəbul prosedurları adi miqrasiya prosesindən fərqlənir. Azərbaycanın aidiyyəti dövlət qurumları regionda və qonşu ölkələrdə baş verən müharibə və böhran risklərini daim nəzərə alır və bu səbəbdən gücləndirilmiş hazırlıq rejimində fəaliyyət göstərir. Hələ 2005–2006-cı illərdə ABŞ-nin İrana mümkün hərbi müdaxiləsi ilə bağlı ehtimallar gündəmdə olarkən belə, Azərbaycanda müvəqqəti düşərgələrin yaradılması və mümkün humanitar senarilərlə bağlı ilkin fəaliyyət planları hazırlanmışdı. Hazırda da ölkədə mümkün böhran vəziyyətləri ilə bağlı çevik fəaliyyət mexanizmləri və koordinasiya olunmuş idarəetmə alqoritmləri mövcuddur. Miqrasiya proseslərinin idarə olunmasında iştirak edən dövlət qurumları müxtəlif ehtimal senarilərinə uyğun hazırlıq işləri aparmaq və operativ qərarlar vermək imkanına malikdir".

A.Allahverənov əlavə edib ki, Azərbaycanın aidiyyəti strukturları miqrant və qaçqınların hüquq və azadlıqlarının qorunması, beynəlxalq humanitar prinsiplərin tətbiqi və bu sahədə yaranan vəziyyətlərə adekvat reaksiya verilməsi istiqamətində kifayət qədər təcrübəyə sahibdir.

**Şəymən Bayramova**

# Şəhidlər bizim müqəddəslərimizdir

## Onların şəkillərini restoran və obyektlərin qarşısında asmaq doğru deyil

**"Bu kimi məsələlər qanunla daha dəqiq şəkildə tənzimlənməlidir. Ümid edirik ki, qanunverici orqanlar gələcəkdə bu məsələlərə xüsusi diqqət yetirəcəklər"**



### Hərbi jurnalist şəhidlərin xatirəsi ilə bağlı problemə diqqət çəkdi

Şəhidlər xalqın ən dəyərli mənəvi sərvətlərindəndir. Onların xatirəsinin yaşadılması, qəhrəmanlıqlarının gələcək nəsillərə çatdırılması hər birimizin borcudur. Lakin bu müqəddəs adlara göstərilən ehtiramın hansı formada ifadə olunması da xüsusi həssaslıq tələb edir.

Son günlər şəhid şəkillərinin müxtəlif ictimai məkanlarda, kommersiya obyektlərinin - klubların qarşısında yerləşdirilməsi ilə bağlı sosial şəbəkələrdə görüntülər yayılıb. İctimaiyyət bu görüntüləri birmənalı qarşılamayıb. Lakin məsələyə həm hüquqi, həm də mənəvi aspektdən yanaşmaq daha vacibdir.

**Hərbi jurnalist, Qarabağ qazisi və yazıçı Rey Kərəmoğlu "Şərq"ə mövzu ilə bağlı fikirlərini bölüşüb:** "Bu, xoşagələn hal deyil. Hər hansı bir klubun, restoranın və ya digər obyektin qarşısında şəhid şəkillərinin yerləşdirilməsi doğru yanaşma hesab olunmamalıdır.

Ümumiyyətlə, şəhidlərimizlə, onların xatirəsinin əbədiləşdirilməsi ilə, eləcə də hərbi forma və digər atributlarla bağlı müəyyən qanunvericilik normaları mövcuddur. Lakin burada yalnız qanun deyil, ictimai məsuliyyət də vacibdir. Şəhid ailələri və cəmiyyət bu məsələlərdə daha həssas davranmalıdır.

Şəhidlər bizim müqəddəslərimizdir. Dünən bir ailənin övladı olan şəhid, bu gün bütün millətin oğludur. Məhz buna görə də onların xatirəsinə münasibətdə diqqətli olmaq lazımdır".

**Hərbi jurnalist vurğulayıb ki, küçələrin müxtəlif yerlərində, obyektlərin qarşısında və ya uyğun olmayan məkanlarda şəhid şəkillərinin yerləşdirilməsi ürəkaçan mənzərə yaratmır:** "Bu kimi məsələlər qanunla daha dəqiq şəkildə tənzimlənməlidir. Ümid edirik ki, qanunverici orqanlar gələcəkdə bu məsələlərə xüsusi diqqət yetirəcəklər.

Eyni zamanda, şəhid məzarlarının qorunması, qəbiristanlıqlarda onların xatirəsinin layiqincə yaşadılması, məzarları üzərində dövlət bayraqlarının ucaldılması kimi məsələlərə daha çox önəm verilməlidir. Bu gün küçələrdə tez-tez şəhid şəkillərinin asıldığını görürük. Lakin şəhidlərimizin xatirəsinin uca tutulması daha sistemli və hörmətli şəkildə həyata keçirilməlidir".

**Qarabağ qazisi digər dövlət atributlarının küçələrdə yerləşdirilmələrindən də danışıb:** "Bu gün müxtəlif ərazilərdə, xüsusilə də işğaldan azad olunmuş bölgələrdə şəhid şəkillərinin və dövlət bayraqlarının küçələrdə, yol kənarlarında yerləşdirildiyini görürük. Lakin zaman keçdikcə bu şəkillər və bayraqlar aşınır, cırılır, yararsız vəziyyətə düşür. Həmin ərazilərdə bəzən yerli idarəetmə strukturlarının və ya məsul qurumların operativ müdaxiləsi mümkün olmur, nəticədə isə istər-istəməz şəhidlərimizin xatirəsinə və dövlət rəmzlərimizə qarşı hörmətsizlik görüntüsü yaranır".

Müsahibimiz qeyd edib ki, həmin şəkil və ya bayrağı yerləşdirən şəxslər də sonradan onların vəziyyətinə nəzarət edə bilmirlər: "Bir dəfə vurulan atributlar uzun müddət baxımsız qalır və bu da müxtəlif problemlərə səbəb olur. Buna görə də bu məsələlər sistemli şəkildə tənzimlənməli, məsuliyyət mexanizmləri müəyyən edilməli və yaranan problemlər aradan qaldırılmalıdır. Ümid edirik ki, gələcəkdə bu sahədə daha effektiv həll yolları tapılacaqdır".

**Banuçiçək Kalbalıyeva**

# Bakıda tıxacın əsas səbəbi məktəblər və universitetlərdir

## İş qrafiklərinin dəyişdirilməsi tıxac problemini kökündən həll etməyəcək



**Güman ki, yeni tədris ilinin başlanğıcında paytaxtda dəyişkən iş qrafiki tətbiq olunacaq. Bu, "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nda əksini tapıb. Proqrama əsasən dövlət orqanlarının, təhsil və tibb müəssisələrinin, habelə digər hüquqi və fiziki şəxslərin iş rejiminin dəyişkən iş qrafikinə əsasən təşkili nəzərdə tutulur. Bu barədə millət vəkili, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, Əmək və sosial siyasət komitələrinin üzvü Vüqar Bayramov məlumat verərək bildirib ki, proqrama görə, bu məhz 2026-cı ildə reallaşacaq:**

- Proqrama əsasən, dəyişkən iş qrafikinin tətbiqi ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, TƏBİB və Nəqliyyatı Əlaqələndirmə Şurası tərəfindən aparılan təhlillər yaxın zamanlarda tamamlanmalıdır. Bununla da, Nazirlər Kabineti tərəfindən təsdiq ediləcək siyahılara əsasən dəyişkən iş rejimi təşkil olunacaq.

Millət vəkili qeyd edib ki, belə təcrübə Avropanın bir sıra ölkələrində tətbiq olunur. Təhlillər göstərir ki, fərqli işə başlama saatları nəqliyyat yüklənməsini bölüşdürür və səhər-axşam pik vaxtlarda sıxlığı azaldır. Dəyişkən il qrafikinin tətbiqi nəqliyyat sıxlığını tam aradan qaldırmasa da, azaldılmasına kömək edə bilər.

**Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov "Şərq"ə açıqlamasında bildirdi ki, Bakı şəhərində nəqliyyat infrastrukturunun yaxşılaşdırılmasına dair Dövlət Proqramı var və bu tərkibdə 10-lar tədbir nəzərdə tutulub, bunlardan biri də iş yerlərinin qrafiklərinin optimallaşdırılmasıdır:**

- Reallaşması ən çətin olan da elə budur. Çünki Bakıda iri müəssisələr, demək olar ki, yoxdur. Olanlardan biri, məsələn, Neftayırma Zavodudur, amma onlar növbəli iş sistemi ilə fəaliyyət göstərirlər. Qalır dövlət orqanları, yəqin ki, onların müəyyən təklifləri var. Özəl sektorda isə əsasən xırda müəssisələr fəaliyyət göstərir. Hərəsində 5-10 nəfər çalışır. Ticarət sektorunda bu, mümkün olmayacaq. Həyatı təmin edən sahələrdə mümkün olmayacaq. Yalnız iş qrafikinin dəyişilməsi mümkün olan yerlərdə dəyişiklik etmək problemin həllinə əsaslı kömək etməyəcək. Nəqliyyat sıxlığının yaranmasının əsas səbəbi təhsil müəssisələridir. Şəxsi avtomobilləri məktəblərin qarşısında saxlayırlar, uşaqları düşürür, mindirirlər, tıxac yaranır, ali təhsil müəssisələrinin də qarşısında daim tıxac yaranır avtomobillərə görə. Bununla bağlı tədbir görülməlidir. Amma hələ ki konkret bir təklif yoxdur. Təhsil müəssisələrinin köçürülməsi bəzən təklif edilir, lakin bu, asan məsələ deyil. Təhsil müəssisəsini köçürmək, bir binanı başqa yerdə tikmək deyil təkcə. Bunun müəllim heyəti var, infrastrukturu, daşınması var, bu, o qədər də asan məsələ deyil. Paralel digər tədbirlər həyata keçirilsə, məsələn, keçidlər, yollarla bağlı müəyyən dəyişikilkər edilsə, bəlkə problemin həllinə kömək etmiş olar.

**Məlahət Rzayeva**

**44 günlük müharibədə düşməni doğma yurdumuzdan qovsaq da, onların törtöküntüləri ilə mübarizə aparmağa məcbur qalmışıq. Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ötən gün "X" hesabında 2020-ci il noyabrın 10-dan etibarən mina partlayışlarından 427 nəfərin zərər çəkdiyini, onlardan 73-nün həlak olduğunu açıqlayıb.**



# 6 il keçsə də, təhlükə bitmir, milyonlarla mina basdırılıb

## Təəssüflər olsun ki, Avropa və digər ölkələr, Azərbaycana bu sahədə nə maddi yardım ayırır, nə də minatəmizləmə prosesinə dəstək üçün mütəxəssis göndərirlər

1991-ci ildən bugünədək isə mina qurbanlarının ümumi sayı 3 500 nəfəri ötüb. Mina partlayışı dedikdə ağıla ilk gələn ağrılı hadisələrdən biri də AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov və AzTV-nin operatoru Sirac Abışovun ermənilərin vandal əməllərinin qurbanı olmasıdır. Düşmənin torpaqlarımıza səpdiyi ölüm toxumlarının sayı-hesabı bilinmir. Məhz buna görə işğaldan azad edilmiş ərazilərə geri dönən xalqımızın taleyi hər kəsi narahat edir.

**Mövzu ilə bağlı təhlükəsizlik məsələləri üzrə ekspert, siyasi şərhçi İlham İsmayıl "Şərq"ə bildirib ki, vətəndaşlarımız minatəmizləmə işləri başa çatdırılmış ərazilərə köçürülür:** "Ermənilər torpaqlarımıza milyonlarla mina basdırıblar. Ərazilər çox geniş olduğu üçün minaların tam təmizlənməsi uzun vaxt aparacaq. İşğaldan azad olunmuş bölgələrin hər birində mina təhlükəsi qalmaqdadır. Dövlətimiz dəfələrlə Ermənistandan dəqiq mina xəritələrinin verilməsini tələb edib. Onlar əllərində olan bütün xəritələri, Azərbaycana verdiklərini bildirirlər. Bəlkə də, həqiqəti deyirlər. Çünki həmin xəritələrdə əks olunmayan ərazilərdə də minalar yerləşdirilib".

**Ekspertin sözlərinə görə, 44 günlük müharibədən sonra kəşfiyyata çıxan erməni hərbçiləri, minaları ağlasığmaz yerlərə, qəbiristanlığa belə basdırıblar:** "Müharibədən 6 il keçməsinə baxmayaraq, hələ də bəzi ərazilərdə mina partlayışlarının şahidi oluruq. Əhalinin təhlükəsizliyini təmin etmək üçün minaların mövcud olduğu ərazilərdə təhlükəyə aid nişanlar qoyulmalı və hasar çəkilməlidir. Təəssüflər olsun ki, Avropa və digər ölkələr, Azərbaycana bu sahədə nə maddi yardım ayırır, nə də minatəmizləmə prosesinə dəstək üçün mütəxəssis göndərir. Məhz buna görə, təmizləmə işləri hələ uzun çəkəcək".

**Aybəniz Səfərova**




# Birinin azadlığı başqasının azadlığı ilə kəsişənə qədərdir

## Bu düşüncə bizim cəmiyyətə hakim olmalıdır

**Etik qaydaları, ictimai yerlərdə düzgün davranış tərzini bilməyənlər, təəssüf ki hələ də var. Və az da deyillər. Birisi yolda avtomobilin "podpresi" üzərinə uzanır, hərəkəti iflic edir, digəri metroda fövqəladə hallar üçün nəzərdə tutulan "maşinistlə təcili əlaqə" düyməsini lazımsız yerə basır, məzələnir, bir digəri qoçuluq edib bilərəkdən avtomobilini başqa birisinin maşınına çırpır.**



> **"Cəmiyyətin hər bir üzvü, hər bir fərd ictimai yerlərdə düzgün davranış tərzini bilməli və normaları aşmamalıdır"**

Toyda spirtli içkini qədərsiz içib, sonra da çıxıb dalaşan, istirahət parklarını zibilxanaya döndərən, çırtladığı günəbaxan tumunu küçəyə səpələyən... Hər cür insan var aramızda. Etikadan kənar davranışlar, ictimai qaydalara saymazyana münasibət nədən qaynaqlanır, səbəb nədir? Sanki qayda pozmaq qaydaya çevrilib. Niyə?

**Sosioloq Naib Niftəliyev "Şərq"ə açıqlamasında bildirdi ki, bu kimi davranışlar cəmiyyətdə normadan kənar davranışların kütləviləşməsinin göstəricisidir:**

- Xanımın avtomobilin qarşısını kəsərək tıxac yaratması fərdi davranışların kütləvi problemə çevrilməsindən xəbər verir. Bir fərdin problemi sadəcə onun özünə aid olmayıb, həm də cəmiyyəti maraqlandıran məsələdir. Çünki fərd özü cəmiyyətin ayrılmaz üzvüdür və digər insanların müəyyən mənada təsirləri ilə formalaşmış şəxsiyyətə çevrilir. Valideyn-övlad, fərd-cəmiyyət münasibətlərində, bəşəri səviyyədə bütün bu proseslər bir-birilə sıx bağlıdır. Cəmiyyət olaraq bu məsələlərdə iki tənzimləmə formasını görürük. Bu, ictimai rəylə bağlı olan məsələdir. İnsanlar başqalarının davranışlarını kütləvi olaraq dəyərləndirirlər - ya qınayırlar, ya da rəğbətlə qarşılayırlar, neytral münasibət olmur. Burada bir məsələ də var - insanlar bəzən öz səhvlərini görmürlər, öz davranışlarını norma kimi qəbul edir, əsaslandırmağa çalışırlar, amma başqalarının normal təlabini, çağırışını aqressiya ilə qarşılayırlar. Bu qiymətləndirmə də yanlış davranışı doğurur.

**Sosioloq bildirdi ki, sosial müdaxilələrlə sosial maarifləndirmə paralel olmalıdır. İnsan başa düşməlidir ki, o özü başqasını qiymətləndirirsə, onun davranışı da başqaları tərəfindən qiymətləndirilir:**

- İnsan bəzən düzlüyünə əmin olduğu bir məqamda səhvini anlayır amma yenə də özünü "sındırmır", mübahisəni davam etdirir. Bu artıq eqonun həddən artıq olması, narsizmə çevrilməsidir. Digər tərəfdən bəzən elə də olur ki, insan haqlı ola-ola üzrxahlıq edir, qarşı tərəfin yanlış olduğunu bilsə də, ona nəcib yanaşır, kompramisə getməyə, problemi böyütməməyə çalışır. Bu, sivil yanaşmadır, çoxluğun problemlərə bu cür yanaşma sərgiləməsi cəmiyyətin yüksək sosial, mənəvi, mədəni inkişafının göstəricisidir. Düşünürəm ki, Azərbaycan cəmiyyəti kifayət qədər mədəni, həssas cəmiyyətdir, amma yenə də hər kəsin yüksək mədəniyyətə sahib olduğunu demək çətindir. Bəzən söyüşə, təhqirə özünüifadənin bir forması kimi baxırlar. İki nəfərin spirtli içkinin təsiri altında dalaşması və polisin buna müdaxilə etməsi təqdirəlayiqdir. Amma tək polis deyil, cəmiyyət də bu hərəkətləri qınamalıdır. Düzdür, biz heç kimə məhdudiyyət qoya bilmərik, az iç və ya niyə çox içirsən, amma bir müsəlman, şərq ölkəsi kimi Azərbaycanda da içkiyə olan münasibət çox da isti deyil. Amma hər kəs bilməlidir ki, normanı aşan hər bir şey zərərlidir. Düşünürəm ki, sürücülük vəsiqəsi verilərkən insanın içkiyə olan münasibəti də araşdırılmalıdır. Hətta bu barədə şəxsin özünə deyilməməlidir. Belə insanların sükan arxasına oturmasına uzunmüddətli məhdudiyyət qoyulmalı və ya həmişəlik qadağan olunmalıdır. Nəyin necə baş verdiyini biz bilmirik, amma bir şəxsin hərəkətdə olan avtomobilin qarşısını kəsməsi artıq ictimai təhlükə doğuran bir məsələdir.

Xanımın özünə görə haqlı səbəbi ola bilər, amma bu ona əsas vermir ki, digər insanlara da problem yaratsın, qanunu pozsun. Birinin azadlığı başqasının azadlığı ilə kəsişənə qədərdir - bu düşüncə bizim cəmiyyətə hakim olmalıdır. Cəmiyyətin hər bir üzvü, hər bir fərd ictimai yerlərdə düzgün davranış tərzini bilməli və normaları aşmamalıdır. Hətta parkda, istirahət məkanında skamyada əyləşəndə də, ictimai nəqliyyatda da başqa birisinə mane olub-olmadığına diqqət etməlisən.

**Məlahət Rzayeva**

# Tələbələr və sərnişinlər şikayətlənirlər

## AZAL-ın bilet qiymətləri ilə bağlı narazılıqlar artır



**Türkiyədə təhsil alan azərbaycanlı tələbələrin yay tətillərində ölkəyə qayıtması ilə bağlı aviasiya biletlərinin qiymətləri yenidən ictimai müzakirə mövzusuna çevrilib.**

"Şərq" xəbər verir ki, sosial şəbəkələrdə yayılan məlumatlara görə, ötən il tələbələr üçün tətbiq edilən güzəştli tariflər bu il ləğv olunub və nəticədə aviabiletlərin qiymətində ciddi artım müşahidə edilir.

Bu haqda mövzunu tanınmış jurnalist Anar Niftəliyev gündəmə gətirib.

Məlumata görə, əvvəlki illərdə tələbələr müəyyən müddət əvvəl müraciət etməklə təxminən 90 dollara bilet əldə edə bilirdilər. Lakin hazırkı vəziyyətdə, xüsusilə iyul ayı üçün İstanbuldan Bakıya uçuşlarda qiymətlər 500 manatdan başlayır, digər şəhərlərdən isə 600-700 manat və daha yuxarı həddə çatır.

Sosial şəbəkə istifadəçiləri və tələbə ailələri qiymət artımından narazılıq edərək bunun əvvəlki illərlə müqayisədə kəskin fərq yaratdığını bildirirlər. Onların sözlərinə görə, ötən il ən yüksək bilet qiymətləri 340-350 manat civarında olub.

Mövzu ilə bağlı müxtəlif reaksiyalar da diqqət çəkir. Bəzi istifadəçilər qiymət artımını kəskin tənqid edərək tələbələrin sosial vəziyyətinin nəzərə alınmalı olduğunu vurğulayırlar. Digərləri isə xidmət keyfiyyətinin qiymətlərlə müqayisədə uyğunsuz olduğunu iddia edirlər. Eyni zamanda, fərqli fikirlər də səslənir və qiymət siyasətinə dair müdafiə xarakterli şərhlər də yer alır.

Narazılıq edənlər xüsusilə Türkiyədə təhsil alan tələbələrin yay aylarında ailələrinə qayıtmasının vacibliyini önə çəkir və bu prosesdə güzəştlərin bərpa olunmasını tələb edirlər.

**Qulu Məhərrəmli:** AZAL ölkənin soyğunçu qurumlarından biridir.

**Elnarə Kərimova:** Bazar günü vacib gedən vardı, Ankaraya bilet 1250 manat.

**Elnurə Abışova:** AZAL - "Azerbaijan Airlines" rəhbərliyi, işıq ucu varmı?

**Mətanət Ağamirli:** AZAL-da xidmət yaxşıdı. Amma qiymətlər o xidmətdən 5 dəfə çoxdu. Soyğunçuluq missiyasını uğurla davam edən qurum...

**İlhamə Qasımlı:** Mətanət Ağamirli, xidmət dediyin, sendviç və 10 kiloluq baqajdı daa...buna görə də başqa hava yolları şirkətinin biznes-klas üçün aldığı pulu ekonom-klas üçün tələb edilməz ki...

**Zülfiyyə Quliyeva:** Yaxın tarixlərə qiymətlər Ankaradan Bakıya min manatdan çox idi. Mən də bir ay sonraya 300 manata aldım. AZAL- ın bu qiyməti konkret soyğunçuluqdur. Tələbələr xaricdə işləmir, təhsil alırlar. Onlara alverçi gözü ilə baxan quruma haqqımızı halal etmirik. Min dəfə burunlarından gəlsin, biz kasıbların haqqına girənlərin. Heç olmasa, quru yolların bağlı olduğunu nəzərə alıb tələbələrə güzəşt edəydilər.

**Rumiyyə Miraslan:** Qardaş, xəstə ataanamı görməyə gələ bilmirik, iyunun axırı üçün Ankaradan Bakıya 618 manatdı qiymət. Bu haqsızlığı Allah necə götürür?..

*Qeyd edək ki, hazırda məsələ ictimai müzakirələr səviyyəsində qalır və rəsmi qurumların mövqeyi ilə bağlı əlavə açıqlama gözlənilir.*

**Banuçiçək**

# Azərbaycanda psixi xəstəliklər sürətlə artır

## Hər 5 pasiyentdən 3-ü risk altındadır




> **Rəsmi statistika yalnız qeydiyyata alınan halları əhatə edir və reallıqda psixi problemləri olan, lakin müalicəyə və ya qeydiyyata düşməyən şəxslərin sayı daha çoxdur**

**2025-ci ildə psixoaktiv maddələrin qəbulu ilə bağlı olan pozuntular istisna olmaqla, psixi və davranış pozuntuları diaqnozu ilk dəfə qoyulmuş 6 063 nəfər qeydiyyata alınıb. Dövlət Statistika Komitəsindən verilən məlumatda bildirilib ki, onlardan 4 499-u kişi, 1 564-ü isə qadındır. Yaş qrupları üzrə ilk dəfə diaqnoz qoyulan şəxslərin 2 466-sı 0-17 yaş, 1 591-i 18-29 yaş, 698-i 30-39 yaş, 1 308-i isə 40 və yuxarı yaş qrupuna aid olub.**

Komitədən verilən məlumata əsasən, 2025-ci ildə tibb müəssisələrində qeydiyyatda olan psixi və davranış pozuntulu xəstələrin ümumi sayı 111 560 nəfər təşkil edib.

Bundan əlavə, qeydiyyatda olan xəstələrin 79 968-i kişi, 31 592-si qadın olub. Yaş bölgüsünə görə, qeydiyyatda olan xəstələrin 13 867-si 0-17 yaş, 29 723-ü 18-29 yaş, 22 851-i 30-39 yaş, 45 119-u isə 40 və yuxarı yaş qrupunda qeydə alınıb.

**Psixoloq Aytən Ələkbərova "Şərq"ə bildirib ki, Azərbaycanda psixi sağlamlıqla bağlı vəziyyəti ciddi narahatlıq doğuran tendensiya kimi qiymətləndirir. Onun sözlərinə görə, kliniki praktikada psixi pozuntularla müraciət edən insanların sayında artım müşahidə olunur və bu, artıq gündəlik reallığa çevrilib:** "Tibdə bir sıra psixi xəstəliklərin əsasən genetik faktorlarla izah edildiyi qeyd olunsa da, son illərdə genetik meyilliyi olmayan şəxslərdə də psixi pozuntuların daha tez-tez ortaya çıxması diqqət çəkir. Bunun əsas səbəblərindən biri həyat tərzi ilə bağlı amillərdir".

**A.Ələkbərovanın sözlərinə görə, yuxu rejiminin pozulması və beynin həddindən artıq informasiya və stress yükü altında qalması psixi pozuntulara səbəb olan əsas amillərdir:** "Valideynlərin uşaqlara qarşı yüksək təzyiq və gözləntiləri, xüsusilə "yüksək bal toplamaq" kimi akademik tələblər, uşaqlarda və yeniyetmələrdə ciddi psixoloji gərginlik yarada bilir. Eyni zamanda, həmiləlik dövründə yaşanan güclü təşviş və stress halları da dölün inkişafına təsir göstərərək sonradan müxtəlif psixoloji və nevroloji problemlərin formalaşma riskini artıra bilir. Hətta hiperaktivlik və autizm kimi halların yaranmasında da bu faktor rol oynayır. Yuxusuzluq isə orqanizmdə hormonal balansı pozur, xüsusilə serotonin və melatonin səviyyələrinin dəyişməsi emosional sabitliyi zəiflədir. Bu isə aqressiyanın artmasına, davranış pozuntularına və ümumilikdə psixi sağlamlıq risklərinin yüksəlməsinə gətirib çıxarır".

**Mütəxəssis onu da qeyd edib ki, rəsmi statistika yalnız qeydiyyata alınan halları əhatə edir və reallıqda psixi problemləri olan, lakin müalicəyə və ya qeydiyyata düşməyən şəxslərin sayı daha çoxdur:** "Hələ nə qədər psixi xəstə var ki, siyahıya düşməyib. Gündəlik keçirdiyimiz beş seansdan ən azı üçündə bu cür insanlarla üz-üzə gəlirik".

**Şəymən Bayramova**




# Ayda 36200 manat pul yığan avtobus niyə ziyanla işləyir ki...

## Nədir xərcləri, nə qədər xərcləyirlər, hara xərcləyirlər, bununla bağlı "BakuBus"un hesabatı varmı?

**Dövlət büdcəsindən maliyyələşən strukturlar zərərlə işlədiklərindən daim şikayətlənir və dövlətdən əlavə dotasiyalar alırlar. Üstəlik, məsələn, ictimai nəqliyyatda gediş haqları qalxır, elektrik enerjisi, təbii qaz, su pulu, kommunal ödənişlər də qalxır. Dəfələrlə olub ki, metropoliten, "Azəriqaz", "Azərişıq"... və sair, hansısa ili zərərlə başa vurduğunu elan edib. Niyə?**

İqtisadçı Natiq Cəfərli "BakuBus"la bağlı diqqətçəkən açıqlama verib. İqtisadçı bildirir ki, rəsmi məlumata görə, "BakuBus" ötən 2025-ci ildə büdcədən 100 milyon manat dotasiya alıb. Bakıda sərnişindaşıma sahəsində yaranmış zərərin qarşılanması üçün 50,7 milyon manat, 4 şəhərdə (Xankəndi, Cəbrayıl, Ağdam və Laçın) elektrik doldurma stansiyaları ilə təchiz edilmiş qarajların və 3 şəhərdə (Şuşa, Cəbrayıl və Laçın) avtostansiyaların tikintisi, habelə şəhərdaxili və şəhərlərarası daşımaların icra edilməsi məqsədilə müvafiq olaraq, elektrik və yüksək ekoloji standartlara cavab verən dizel yanacaqlı avtobusların alınması üçün 49,3 milyon manat ayrılıb.

**N.Cəfərli "Şərq"ə açıqlamasında qeyd etdi ki, qaraj tikintisi, avtobusların alınması, anlaşılandır, 49 mln. 300 min manat bu işlərə xərclənib, yəni maddi-texniki bazanın yaradılmasına ayrıca pul alırlar. Sərnişindaşımaya görə isə 50 mln. 700 min manat dotasiya ödənilib:**

- Rəsmi rəqəmlərə görə, "BakuBus" hər gün 557 min sərnişin daşıyır. Məsafədən asılı olaraq qiymətlər 0.60, 0.70, 0.80 manat və maksimum 1.30 manatdır, bir tək hava Limanına gediş üçün 1 manat 50 qəpik ödəniş edilir. Ortalama 65 qəpikdən götürsək, günə 362 min, aya 10 mln. 861 min, ilə 130 mln. manat dövriyyəsi olur. Yəni "BakuBus" öz dövriyyəsinin 40 faizə yaxınını büdcədən, yəni bizim ödədiyimiz vergidən dotasiya alır. "BakuBus" MMC gün ərzində paytaxtın marşrut şəbəkəsinə orta hesabla 280-320 avtobus çıxardır. Ortalama 300 avtobus götürək, hər avtobus günə 1200 manat vəsait toplayır, deməli, aya 36200 manat vəsait yığılır. Yaxşı, ayda 36200 manat yığan avtobus niyə ziyanla işləyir ki, hələ bir dotasiya da alırlar?! Nədir xərcləri, nə qədər xərcləyirlər, hara xərcləyirlər, bununla bağlı "BakuBus"un hesabatı varmı? Sürücünün maaşı, yanacaq (ya elektrik), təmir və s. – bu xərclər ayda nə qədərdir ki, 36200 manat vəsait yığan bir avtobus öz xərclərini ödəyə bilmir?! Real rəqəmlər ortadadırsa, izahat da verilməlidir.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**




# Milli Qurtuluş Günü həm də gələcəyimizin bayramıdır

## Bu tarix Azərbaycan dövlətinin xilası, inkişafı və Böyük Zəfərə aparan yolun başlanğıcı kimi daim xalqımızın yaddaşında yaşayacaq

**Azərbaycan xalqının müasir tarixi milli dövlətçilik ideyalarının möhkəmlənməsi, müstəqilliyin qorunması və ərazi bütövlüyünün təmin olunması uğrunda aparılan mübarizənin parlaq nümunəsidir. Bu tarixin ən mühüm mərhələlərindən biri 1993-cü il 15 iyun tarixində başlanan Milli Qurtuluş yoludur. Həmin gün Azərbaycan xalqı öz taleyini, dövlətinin gələcəyini və müstəqilliyinin qorunmasını Ulu Öndər Heydər Əliyevin siyasi müdrikliyinə etibar etdi. Sonrakı illərdə baş verən hadisələr göstərdi ki, bu seçim Azərbaycanın tarixində verilmiş ən düzgün və taleyüklü qərarlardan biri olub.**

Milli Qurtuluş Günü təkcə siyasi böhranın aradan qaldırılması ilə məhdudlaşmır. Bu tarix həm də müasir Azərbaycanın inkişaf strategiyasının başlanğıcı, dövlət quruculuğu prosesinin yeni mərhələsi və gələcək böyük uğurların təməlidir. Bu gün Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərin, o cümlədən 2020-ci ildə qazanılmış tarixi Zəfərin kökündə məhz 1993-cü ildə başlanmış siyasi kurs dayanır.

**90-cı illərin əvvəllərində Azərbaycanın mürəkkəb vəziyyətdə olduğunu xatırladan Milli Məclisin deputatı Şahin Seyidzadə "Şərq"ə bildirib ki, Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımız işğal edilir, minlərlə insan həlak olur, yüz minlərlə vətəndaş qaçqın və məcburi köçkün vəziyyətinə düşürdü. O həmçinin qeyd edib ki, ölkə daxilində siyasi çəkişmələr, hakimiyyət böhranı və idarəetmədəki səriştəsizlik dövlət müstəqilliyini ciddi təhlükə altına salmışdı:** "1993-cü ilin iyun ayında ölkədə vəziyyət kritik həddə çatmışdı. Vətəndaş müharibəsi təhlükəsi yaranmış, separatçılıq meyilləri güclənmiş, dövlət idarəçiliyi iflic vəziyyətinə düşmüşdü. Belə bir şəraitdə Azərbaycan xalqı yeganə çıxış yolunu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışında gördü.

Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyununda siyasi hakimiyyətə qayıdışı ölkənin taleyini dəyişdirdi. Onun rəhbərliyi ilə ilk növbədə ictimai-siyasi sabitlik təmin edildi. Dövlətçiliyə qarşı yönəlmiş təhdidlər aradan qaldırıldı, qanunsuz silahlı birləşmələr zərərsizləşdirildi, vətəndaş qarşıdurmasının qarşısı alındı.

Ulu Öndər Heydər Əliyev çox yaxşı bilirdi ki, güclü dövlət quruculuğu olmadan nə iqtisadi inkişaf, nə beynəlxalq nüfuz, nə də hərbi uğur əldə etmək mümkündür. Buna görə də dövlət institutlarının formalaşdırılması, qanunun aliliyinin təmin olunması və milli həmrəyliyin yaradılması onun fəaliyyətinin əsas istiqamətlərinə çevrildi.

1994-cü ildə əldə olunmuş atəşkəs Azərbaycanın gələcək inkişafı üçün mühüm şərait yaratdı. Bu qərar dövlətin daxili potensialını gücləndirməyə, iqtisadiyyatın dirçəldilməsinə və ordu quruculuğuna daha çox diqqət yetirməyə imkan verdi. Həmin dövrdə qəbul edilmiş strateji qərarlar sonrakı onilliklər ərzində ölkənin inkişafını müəyyənləşdirdi.

Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyası Azərbaycanın iqtisadi tarixində yeni səhifə açdı. 1994-cü ilin sentyabrında imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi baxımından mühüm hadisə oldu. Dünyanın aparıcı enerji şirkətlərinin iştirakı ilə imzalanan bu müqavilə Azərbaycana böyük həcmdə investisiyaların cəlb edilməsinə şərait yaratdı. Neft strategiyası yalnız iqtisadi layihə deyildi. Bu, Azərbaycanın beynəlxalq mövqelərinin güclənəndirilməsinə xidmət edən uzaqgörən siyasi addım idi. Sonrakı illərdə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi mühüm enerji layihələrinin həyata keçirilməsi ölkəmizin geosiyasi əhəmiyyətini daha da artırdı.

Ulu Öndər Heydər Əliyev dövlət quruculuğu ilə yanaşı, ordu quruculuğunu da prioritet istiqamət kimi müəyyən etmişdi. O yaxşı bilirdi ki, torpaqların işğaldan azad edilməsi yalnız güclü dövlət və güclü ordu vasitəsilə mümkündür. Buna görə də peşəkar Silahlı Qüvvələrin yaradılması istiqamətində mühüm addımlar atıldı.

Müasir Azərbaycan Ordusunun təməli məhz həmin illərdə qoyuldu. Ordunun maddi-texniki bazasının gücləndirilməsi, hərbi təhsil sisteminin inkişaf etdirilməsi, peşəkar zabit korpusunun formalaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirildi.

Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası sonrakı illərdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi və daha da zənginləşdirildi. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan regionun ən güclü dövlətinə çevrildi. Ölkənin iqtisadi imkanları genişləndi, beynəlxalq nüfuzu artdı, ordu quruculuğu yeni mərhələyə qədəm qoydu.

**Deputatın sözlərinə görə, Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsi, ən müasir silah və texnikalarla təchiz edilməsi, hərbi sənayenin inkişafı və peşəkar kadr potensialının gücləndirilməsi nəticəsində ordumuz dünyanın ən güclü orduları sırasında yer alıb:** "Bütün bunlar Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik strategiyasının uğurlu davamı idi.

2020-ci ilin sentyabrında Ermənistanın növbəti təxribatlarına cavab olaraq başlanan Vətən müharibəsi Azərbaycan tarixinin ən şanlı səhifələrindən birinə çevrilib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu 44 gün ərzində tarixi Zəfər qazanıb. Bu Zəfər təsadüfi deyildi. Onun arxasında illərlə həyata keçirilən məqsədyönlü siyasət, güclü iqtisadiyyat, müasir ordu və xalq-iqtidar birliyi dayanırdı. Məhz Milli Qurtuluşdan sonra formalaşdırılmış dövlətçilik modeli Azərbaycanı Böyük Zəfərə aparan yolun əsasını təşkil etmişdi.

Şuşanın azad edilməsi Vətən müharibəsinin kulminasiya nöqtəsi oldu. Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın işğaldan azad edilməsi düşmənin kapitulyasiyasını qaçılmaz etdi. Prezident İlham Əliyevin dediyi kimi: "Mən xoşbəxt insanam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik!".

Bu sözlər təkcə bir hərbi uğurun deyil, həm də Ulu Öndər Heydər Əliyevin ən böyük arzusunun həyata keçməsinin ifadəsi idi. Ulu Öndər Heydər Əliyev uzun illər ərzində Qarabağın və Şuşanın azad olunacağına inamını itirməmişdi. Onun müəyyən etdiyi siyasi kurs nəticə etibarilə həmin məqsədə nail olunmasına şərait yaratdı. Vətən müharibəsindən sonra Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq işləri başlandı. Dağıdılmış şəhər və kəndlər yenidən qurulur, yollar, hava limanları, elektrik stansiyaları və digər mühüm infrastruktur layihələri həyata keçirilir.

Bu gün Şuşada, Laçında, Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda və Xankəndidə Azərbaycan bayrağı dalğalanır. Böyük Qayıdış proqramı uğurla icra olunur. Keçmiş məcburi köçkünlər öz doğma torpaqlarına qayıdırlar.

Bütün bunlar bir daha göstərir ki, Milli Qurtuluşdan başlanan yol Böyük Zəfərlə nəticələnib. Əgər 1993-cü ildə Ulu Öndər Heydər Əliyev Azərbaycanın siyasi rəhbərliyinə qayıtmasaydı, dövlətçiliyin qorunması və sonrakı uğurların əldə olunması mümkün olmazdı".

**Bu gün Azərbaycanın dünyanın nüfuzlu dövlətlərindən biri kimi tanındığını vurğulayan Ş.Seyidzadə bildirib ki, ölkəmiz beynəlxalq təşəbbüslərin müəllifi kimi çıxış edir, qlobal enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır, regional əməkdaşlığın inkişafına töhfələr verir:** "Milli Qurtuluş Günü ilə başlanan inkişaf yolu bu gün də uğurla davam edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yeni zirvələr fəth edir, müstəqilliyini daha da möhkəmləndirir və milli maraqlarını qətiyyətlə müdafiə edir. Tarix sübut etdi ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursu Azərbaycanın milli maraqlarına, dövlətçilik ənənələrinə və xalqın gələcək inkişafına əsaslanan uzaqgörən strategiya idi. Bu strategiya ölkəni böhrandan çıxardı, sabitlik yaratdı, iqtisadi yüksəlişi təmin etdi və nəhayət, tarixi Zəfərə gətirib çıxardı.

Milli Qurtuluşdan Böyük Zəfərə uzanan yol Azərbaycan xalqının iradəsinin, dövlətçilik ənənələrinin və güclü liderlik amilinin təntənəsidir. Bu yolun müəllifi Ulu Öndər Heydər Əliyev, davamçısı isə Prezident İlham Əliyevdir. Azərbaycanın bugünkü uğurları və gələcək inkişaf perspektivləri məhz bu siyasi kursun gücünü və həyatiliyini bir daha təsdiqləyir. 15 İyun – Milli Qurtuluş Günü təkcə keçmişimizin deyil, həm də gələcəyimizin bayramıdır. Bu tarix Azərbaycan dövlətinin xilası, inkişafı və Böyük Zəfərə aparan yolun başlanğıcı kimi daim xalqımızın yaddaşında yaşayacaqdır".

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub





# Qalibafın açıqlamaları genişmiqyaslı müharibə yox, strateji mesajdır

## İsmayıl Cingöz: "İran-ABŞ gərginliyi "qarşılıqlı çəkindirmə" strategiyası üzərində qurulub"

**ABŞ-İran gərginliyi davam edir. İran parlamentinin sədri Məhəmməd Baqir Qalibaf deyib ki, "İrana istənilən təcavüzə gecikmədən cavab verəcəyik".**

"Son qələbə qabaqdadır. İran istənilən təcavüzə qətiyyətlə və tərəddüd etmədən cavab verəcək", - spiker bildirib.

Qalibaf eyni zamanda İran və ABŞ arasında müharibənin davam etdiyini vurğulayıb.

**Beynəlxalq siyasət üzrə mütəxəssis və təhlükəsizlik araşdırmaçısı İsmayıl Cingöz "Şərq"ə ABŞ-İran arasında davam edən gərginlikdən və Qalibafın açıqlamasından danışıb:** "İran Parlamentinin sədri Məhəmməd Baqir Qalibafın "istənilən hücuma gecikmədən cavab verəcəyik" və "qəti qələbə yaxındır" ifadələri, ilk növbədə İranın çəkindirmə strategiyasının hissəsi kimi oxunmalıdır. Bu cür açıqlamalar yalnız xarici aktorlara və İranın dəstəklədiyi proksi qüvvələrə deyil, eyni zamanda İran ictimaiyyətinə və dövlət qurumlarına da ünvanlanmış mesajdır.

İran rəhbərliyi uzun illərdir təhlükəsizlik doktrinasını "qarşılıqlı çəkindirmə" prinsipi üzərində qurur. Bu səbəbdən Tehran özünə qarşı hərbi təzyiqin qiymətini artırmağa çalışır və istənilən hücumun cavabsız qalmayacağını vurğulayır. Qalibafın açıqlaması da bu strateji xəttin davamıdır.

Bununla yanaşı, İran ilə Amerika Birləşmiş Ştatları arasında mövcud gərginliyin tammiqyaslı müharibəyə çevrilməsi hər iki tərəf üçün olduqca baha başa gələcək. Buna görə də Qalibafın "müharibə davam edir" ifadəsi klassik mənada dövlətlərarası açıq müharibə vəziyyətindən daha çox proksi aktorlar, kiber əməliyyatlar, iqtisadi sanksiyalar, kəşfiyyat fəaliyyəti və məhdud hərbi toqquşmalar vasitəsilə aparılan uzunmüddətli güc mübarizəsinə işarə edir".

**Ekspert bildirib ki, Türkiyə və Azərbaycan baxımından İran-ABŞ gərginliyinin artması, Cənubi Qafqaz və Yaxın Şərqdəki geosiyasi tarazlıqlara birbaşa təsir göstərə biləcək inkişafdır:** "Mümkün böhran enerji təchizatının təhlükəsizliyi, nəqliyyat dəhlizləri, regional ticarət həcmi və sərhəd təhlükəsizliyi üzərində yeni risklər yarada bilər. Xüsusilə Xəzər hövzəsi ilə Avropa arasında enerji və logistika körpüsü rolunu oynayan Türkiyə və Azərbaycan regional qeyri-sabitliyin iqtisadi və strateji nəticələrini yaxından hiss edə biləcək ölkələr sırasındadır. Bu səbəbdən hadisələrin təsirlərini Ankara və Bakı diqqətlə izləyir.

Qlobal miqyasda qiymətləndirildikdə isə İran-ABŞ gərginliyinin dərinləşməsi enerji qiymətlərində dalğalanmalara, beynəlxalq ticarət marşrutlarında qeyri-müəyyənliklərə və böyük güclər arasındakı rəqabətin daha da sərtləşməsinə səbəb ola bilər. Buna görə də Qalibafın açıqlamaları yalnız hərbi mesaj deyil, eyni zamanda regional və qlobal aktorlara yönəlmiş strateji və siyasi xəbərdarlıq xarakteri daşıyır".

**Analitik qeyd edib ki, Qalibafın açıqlaması İranın geri addım atmayacağı mesajını verməyə yönəlmiş sərt siyasi ritorikadır:** "Lakin bu açıqlama yaxın perspektivdə genişmiqyaslı İran-ABŞ müharibəsinin qaçılmaz olduğu anlamına gəlmir. Mövcud mənzərə daha çox nəzarət olunan gərginliyin, qarşılıqlı çəkindirmənin və regional nüfuz uğrunda mübarizənin davam edəcəyinə işarə edir. İran rəhbərliyi bir tərəfdən qətiyyət görüntüsü yaratmağa çalışarkən, digər tərəfdən birbaşa və genişmiqyaslı hərbi qarşıdurmanın xərclərini də nəzərə alır".

**Müsahibimiz vurğulayıb ki, Qalibafın açıqlamaları İranın çəkindirmə doktrinasının aktual təzahürüdür:** "Tehran hücumlara cavab verəcəyini vurğulayaraq həm rəqiblərinə mesaj göndərir, həm daxili ictimaiyyətə, həm də İranın dəstəklədiyi proksi qüvvələrə İranın müqavimət potensialını nümayiş etdirməyə çalışır. Lakin bu ritorika hazırkı mərhələdə birbaşa və genişmiqyaslı İran-ABŞ müharibəsindən daha çox, davam edən strateji güc mübarizəsinin sərtləşdiyinə işarə edir".

**Banuçiçək Kalbalıyeva**

# Araşdırılmamış ailəyə uşaq etibar etmək təhlükəlidir

## Övladlığa verilən uşaqlar yenidən eyni zorakılıq riski ilə üzləşə bilərlər

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən 2026-cı ilin ötən dövründə 70 uşaq övladlığa verilib. Bu barədə Nazirlikdən məlumat verilib.**



Bildirilib ki, onlardan 34-ü qız, 36-sı oğlandır. "Uşaqların övladlığa verildiyi ailələrdə vəziyyətinin öyrənilməsi üçün onlar 18 yaşına çatanadək övladlığagötürmənin birinci ilində hər rüb, növbəti illərdə isə ildə bir dəfə olmaqla monitorinqlər aparılır. Onu da qeyd edək ki, valideyn himayəsindən məhrum olmuş uşaqları övladlığa götürən şəxslər aylıq sosial müavinətlə (3-18 yaş arası hər uşağa görə 240 manat, əlilliyi olan hər uşağa görə 600 manat) təmin edilir. Həmçinin onlar sosial təminat, əmək, vergi münasibətləri sahələrində bir sıra güzəştlərə də malikdirlər.

## Mehriban Zeynalova: "Bu boşluqlar aradan qaldırılmasa, eyni faciələr təkrarlanacaq"

Övladlığa verilən uşaqların himayədar ailədəki vəziyyətini müəyyən etmək üçün, ilk vaxtlar rüblük, sonrakı illərdə ildə bir dəfə monitorinq aparılması yetərlidirmi?

**"Təmiz dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova "Şərq"ə açıqlamasında bildirdi ki, övladlığa uşaq verilməsi bir qədər uzun prosesdir:**

- Uşaqların övladlığa verilməsi ailə institutunun gücləndirilməsi baxımından müsbət addımdır. Uşaq ailədə böyüməlidir. Amma uşaq övladlığa verilməzdən öncə ailə barədə ciddi araşdırma aparılır. Araşdırma aparmadan, ailənin vəziyyətini, təkcə maddi deyil, mənəvi-psixoloji durumu öyrənmədən uşağı kiməsə etibar etmək düzgün deyil. Onsuz həmin uşaq doğulduqdan sonra öz ailəsində ayrı-seçkiliyə, qeyri-insani münasibətə məruz qalıb. Yeni ailədə də eyni problemlə qarşılaşmamaqdan ötrü yoxlama prosesləri mütləqdir. Həmin uşaqların yenidən öz ailələrinə geri qaytarılmasına gəldikdə isə bu da araşdırılır. Bununla bağlı İcra Hakimiyyətləri və Sosial Xidmətlər Agentliyi birgə monitorinq aparır. Bu proses də uzunmüddətli olmalıdır. Təəssüf ki, uşaq ailəyə qayıtdıqdan sonra valideynlərlə psixoloji danışıqlar aparılmır. Bu halda da yenidən eyni problemlər baş verəcək. Ona görə də burada bəzi boşluqlar var. Bəzi hallarda uşaqlar özləri doğru məlumatlar verməyə bilər. Bəlkə, ailədən ayrılmaq istəyirlər, müstəqil yaşamaq istəyirlər. Əlbəttə, bu, yuxarı yaş həddində olanlara aiddir. Belə olduqda daha ciddi araşdırma, tədqiqat tələb olunur. Sosial işçilər vəziyyəti dəqiq analiz etməlidir. Lakin azyaşlı zorakılığa məruz qalırsa, valideynlərlə danışıqlar aparılmalı, sosial iş gücləndirilməlidir. Övladlığa, himayəyə verilən uşaqların maddi vəziyyəti, geyimi, qidalanmasına ciddi yanaşılmalı, dövlətin ayırdığı müavinətin təyinatı üzrə xərcləndiyinə əmin olmaq lazımdır.

**Məlahət Rzayeva**




# İctimai nəqliyyat sürücüləri ikiqat diqqətli olmalıdırlar

## Eldəniz Cəfərov: "Sükan arxasında mobil telefonla danışmaq qanunla qadağandır"

**Avtobus sürücülərindən narazılıqlar vaxtaşırı səslənir. Bu dəfə Qərbi Kaspi Universitetinin professoru, memar Elçin Əliyev ictimai nəqliyyatda rastlaşdığı hal barədə sosial şəbəkədə paylaşım edib. Vətəndaş qeyd edib ki, 18 saylı marşrut üzrə hərəkət edən 99-JO 505 dövlət nişanlı avtobusun sürücüsü uzun müddət sükanı bir əliylə idarə edib, digər əlində isə mobil telefon tutaraq söhbət edib. E.Əliyev hətta yarızarafat, yarıgerçək, avtobus sürücülərindən ibarət "Formula-1" komandası təşkil etməyin mümkün olduğunu da yazıb:** "Dostlar, qulaq asın, artıq ölkəmizdə komanda yaradıb "Formula-1" yarışlarına qoşulmağın vaxtıdır. Bizdə avtobus sürücüləri necə də peşəkardırlar! Təbrik edirəm! Bu səhər qızımla birlikdə 18 nömrəli avtobusla gedirdim. Sürücü bütün yol boyu sərnişinlərlə dolu avtobusu bir əli ilə idarə edir, o biri əlində isə telefon tutaraq fasiləsiz danışırdı. Düzdür, biz "Sahil" metrostansiyasından Uroloji Xəstəxanaya qədər gedən müddətdə o, bir dəfə də olsun danışığa ara vermədi. Amma düşünürəm ki, belə sürücülər daha uzun məsafələri də birəlli rahatlıqla qət edə bilərlər - əsas odur ki, sükan arxasında özünəinam olsun. Bunu haradan bildiyimi soruşarsınız, avtobus bir neçə dəfə az qala aşırdı. Amma mən şikayət etmirəm, başa düşürəm ki, hər şey dərhal alınmır. Əsas odur ki, bizi məktəbə sağ-salamat çatdırdı".

Avtobus sürücülərinin sükan arxasında mobil telefonla danışması, tum çırtlaması, hətta avtobusu idarə etməsiylə paralel çay nuş etməsi görünməmiş hal deyil. Bizim sürücülər "universal"dılar. Amma bu, qanunidirmi?

**Nəqliyyat məsələləri üzrə mütəxəssis Eldəniz Cəfərov "Şərq"ə açıqlamasında qeyd etdi ki, sürücünün sükan arxasında mobil telefonla danışması qadağandır:**

- İstənilən nəqliyyat vasitəsini idarə edərkən mobil telefonu əldə tutaraq danışmaq qadağandır, bunun cəriməsi var. Bunu bütün sürücülər bilir. Belə halların qarşısını Dövlət Yol Polisinin yol-patrul xidməti əməkdaşları alırlar. Bu cür hallar ya müşahidə kameraları vasitəsilə təsbit edilir, ya da yol polisi tərəfindən real zamanda gözlə müşahidə edilərək aşkarlanırsa, sürücü cərimə edilir. İstənilən halda sükan arxasında olan şəxs mobil telefonu əldə tutub danışmamalıdır. Çox zaman mobil telefonu tutacağa bərkidirlər, məsafədən danışıq aparırlar, lakin hətta bu da sürücünün diqqətinin yayınmasına səbəb olacaq haldır. Sürücünün diqqəti yayınmamalıdır. Məsələ ictimai nəqliyyatdırsa, sürücü ikiqat artıq diqqətli olmalıdır.

E.Cəfərov bildirdi ki, ictimailəşdirilmiş halla bağlı AYNA lazımi tədbir görməlidir.

*Qeyd edək ki, 18 saylı marşrut "Faiq Xaliqoğlu" MMC-yə məxsusdur.*

Məlahət Rzayeva

# "Nar" abunəçiləri üçün eSIM nömrələrdə "Asan İmza" xidməti istifadəyə verilib




**Sərfəli xidmətləri ilə tanınan "Nar" abunəçiləri artıq eSIM texnologiyası vasitəsilə "Asan İmza" rəqəmsal imza xidmətindən istifadə edə bilərlər. İstifadəçilər xidmətlə bağlı bütün vacib məlumatları "Nar+" mobil tətbiqi vasitəsilə operativ şəkildə izləyə, eyni zamanda fiziki SIM kartdan eSIM formatına asanlıqla keçərək 2500-dən çox elektron xidmətə təhlükəsiz və rahat çıxış əldə edə bilərlər.**

eSIM üzərindən təqdim olunan bu xidmət yüksək təhlükəsizlik standartlarını qoruyaraq fiziki SIM kartın itirilməsi və ya oğurlanması riskini aradan qaldırır, eyni zamanda plastik kartlardan istifadəyə ehtiyacı azaltmaqla istifadəçilərə bir cihazda bir neçə nömrəni aktivləşdirmək imkanı yaradır.

Qeyd edək ki, bu xidmət fiziki və hüquqi şəxslər üçün 3 il müddətinə təqdim olunur. Aktivləşdirmə "Nar" Müştəri Xidmətlərində həyata keçirilir. eSIM əsaslı "Asan İmza" xidmətinin aktivləşdirmə zamanı PIN kodları əvvəlcədən təqdim edilmir, abunəçilər bu kodları ilk autentifikasiya və ya imzalama prosesi zamanı onlayn şəkildə təyin edirlər. PIN kodların blokdan çıxarılması isə 1847 – "Asan İmza" Çağrı Mərkəzi vasitəsilə onlayn qaydada təmin olunur.

Hazırda 2,2 milyon abunəçiyə xidmət göstərən "Nar" son 7 il ərzində Müştəri Loyallığı İndeksi göstəricisinə əsasən Azərbaycanda lider mobil operatordur. Bu uğurun arxasında "Nar"ın ardıcıl şəkildə həyata keçirdiyi müştəriyönümlü strategiya dayanır. Mobil operator istifadəçilərinə sərfəli qiymət qarşılığında dayanıqlı və yüksəkkeyfiyyətli rabitə xidmətləri, müxtəlif internet paketləri və müasir eSim texnologiyası təqdim edir.

# İstanbul avtovağzalında yatan kişilər

## Naxçıvandan köçün acı mənzərəsi





**"Naxçıvanda elə kəndlər var ki, bütün evlərin qapıları bağlıdır, hamısı ya Bakıdadır, ya da ki İstanbula, Naxçıvanla yaxın olan İğdıra, Vana iş axtarmağa gedirlər"**

**Naxçıvanlıların qardaş Türkiyəyə iş ardınca getdikləri, lakin orada ağır duruma düşdüklərinə dair video yayılıb sosial şəbəkədə. Bildirilir ki, Naxçıvandan İstanbula iş ardınca gedənlər iş tapa bilmir, günlərlə küçələrdə pulsuz, ac, susuz qalır, ya skamyalarda yatır, ən yaxşı halda məscidlərdə gecələyirlər.** Geri qayıtmağa yol pulları da olmur. Kimisinin bəxti gətirir, həmyerlisini görür, onun hesabına avtobusa bilet alıb İğdır yoluyla Naxçıvana qayıda bilir.

**Yaranmış vəziyyətlə bağlı "Şərq"ə danışan D.Əliyeva adına Qadın Hüquqlarının Müdafiəsi Təşkilatının sədri, əslən Naxçıvandan olan Novella Cəfəroğlu qeyd etdi ki, həqiqətən də çox acınacaqlı vəziyyət yaranıb:**

- Naxçıvanda elə kəndlər var ki, bütün evlərin qapıları bağlıdı, hamısı ya Bakıdadır, ya da ki İstanbula, Naxçıvanla yaxın olan İğdıra, Vana iş axtarmağa gedirlər. Bunun ən böyük səbəbi Bakı ilə Naxçıvan arasındakı Zəngəzur yolunun bağlı olmasıdır. İllərdir bu insanlar yetişdirdiyi məhsulu dəmir yoluynan gətirib sata bilmirlər, Naxçıvana quru yolu olmadığı üçün investorlar da riskə gedib sərmayə qoymaq istəmir. Qarabağ savaşı bizim hamımızı yönəltmişdi Qarabağa. İndi Allaha şükür, vəziyyət dəyişib, mən inanıram ki, Qarabağın dirçəlişini qurtarıb, Allah qoysa, Zəngəzur yolu açılacaq, sülh müqaviləsi bağlanandan sonra Naxçıvana da fikir verən olacaq. İllərdir bu insanlar bir təyyarənin ümidinə qalıblar, yollar bərpa olunacaq, Allah qoysa, bütün Asiya qapıları açılacaq. Naxçıvan camaatı çox işgüzar və qonaqpərvər insanlardı, ən birinci onlar o İpək yolunu açacaqlar, Ordubad qozunu, mürəbbəsini, Nehrəm pendirini, ekoloji təmiz tərəvəzlərini bütün dünyaya çatdıracaqlar. Dağ otlarını şəfa üçün yığıb qurudub heç bir yerə apara bilmirlər. Tövsiyəm biznes strukturunda işləyənlərədir, indidən Naxçıvanda yerlər alsınlar, gələcək üçün. Naxçıvanın turizmi, göstərməyə o qədər gözəl yerlər var, Duz dağından tutmuş, Əshabi-Kəhf mağarasına, qədim qalalara qədər. Geoloji kəşfiyyat təzədən inkişaf edəcək, Naxçıvanın "Badamlı"sı, "Sirab"ı, "Vayxir" suyu da var, bütün dünyaya ixrac edilə bilər. İndidən hazırlığa başlasalar, o İstanbulun avtovağzalında yatan kişilər qayıdıb işə başlaya bilər. Mən doğma yurdum Naxçıvanın aşiqiyəm, orada anadan olmuşam, baxmayaraq ki, Bakıda böyümüşəm, amma heç zaman Naxçıvandan ayrılmamışam.

**N.Cəfəroğlu xatırlatdı ki, Kislovodsk da, Soçi də Naxçıvanın təmiz havasına çata bilməz:**

- Mən on il geoloji kəşfiyyat ekspedisiyasında işləmişəm. Təbiətə də, faydalı qazıntılarla zəngin torpağımıza da bələdəm. Atam yüksək vəzifələrdə işləyirdi, amma yay aylarında bizi Soçi, Kislovodska yox, göndərirdi Naxçıvana, kəndimizdə bulaq suyu içirdik, torpağın üstündə gəzirdik, ayaqqabısız, meyvələri ağacdan dərirdik, bostandan pomidor yeyirdik, səhər-səhər şehi üstündə. Rusdilli məktəbdə oxusaq da, atam bizə Vətəni, dilimizi sevməyi, torpağa hörmət etməyi öyrətmişdi. İndiyə qədər ailəmiz, uşaqlar ildə bir dəfə də olsa Naxçıvana gedib qohumlarımızla görüşürük, bu, adətə çevrilib. Naxçıvan camaatı çox sadə, zəhmətkeş, təmiz insanlardı. Sadəcə, onlara işləmək üçün imkan yaradılmalıdır ki, diyarbadiyar düşüb iş axtarmasınlar.

Məlahət Rzayeva

# Təmirə görə piyadaları yolun hərəkət hissəsinə çıxarmaq olmaz

## Səki təmiri var, amma rahatlıq yoxdur, mütəxəssis Bakıdakı əsas problemə toxunub

**Paytaxtımızda tikinti-təmir işləri axarıncıdır. İşlər bitmək bilmir. Bir bina sökülür, yerində digəri tikilir, bir yol təmir olunur, ertəsi gün bir başqası təmirə bağlanır. Təmir-tikinti yaxşıdır, amma qaydasında. Tikintilərlə bağlı ən çox narazılıq isə tikinti şirkətləri tərəfindən ərazinin hasara alınaraq səkilərin zəbt edilməsidir. Belə vəziyyətdə piyadalar məcburən yolun hərəkət hissəsi ilə addımlayır, bununla da həyatları təhlükə altında qalır.**



**Nəqliyyat və logistika məsələləri üzrə mütəxəssis Rauf Ağamirzəyev "Şərq"ə açıqlamasında bu məsələyə toxunaraq qeyd etdi ki, küçə və səkilərin təmiri, əlbəttə, müsbət haldır, lakin piyadaların rahatlığı və təhlükəsizliyi vacibdir:**

- Heydər Əliyev prospektinin, eləcə də Şıxəli Qurbanov və Zivər Əhmədbəyov küçələrinin bəzi hissələrində səki örtüyünün yenilənməsi işləri aparılır. Buna şahid olmuşam. Bu, əlbəttə ki, müsbət haldır. Piyada infrastrukturu investisiya şəhər həyatının keyfiyyətini artıran vacib addımlardandır. Amma sual yaranır ki, niyə bu işlər fraqmental şəkildə həyata keçirilir? Küçənin yalnız müəyyən hissəsi yenilənir, qalan hissəsi isə əvvəlki vəziyyətdə qalır. Küçə və prospektlər piyada marşrutu kimi bütöv şəkildə, hər iki istiqamətdə təmir olunmalıdır. Piyada üçün əsas məsələ, 100-200 metrlik yaxşı səki deyil, mənzilindən təyinat nöqtəsinə qədər rahat, təhlükəsiz və fasiləsiz hərəkət edə bilməsidir. Marşrutun bir hissəsinin ideal, digər hissəsinin isə yararsız olması ümumi rahatlığı təmin etmir. Şəhərsalma baxımından daha düzgün yanaşma küçə və prospektlərin kompleks şəkildə yenilənməsi, səki örtüyü ilə yanaşı bardürlərin, pandusların, piyada keçidlərinə çıxışların və dayanacaq ətrafının da vahid layihə çərçivəsində həll edilməsidir. Ümid edirəm ki, görülən işlər növbəti mərhələlərdə davam etdiriləcək və paytaxtın əsas küçələrində piyada infrastrukturu ayrı-ayrı hissələr üzrə deyil, bütöv marşrut prinsipi əsasında formalaşdırılacaq.

Mütəxəssis bildirdi ki, səkilər giriş və çıxış hissədə təmirə bağlanırsa, piyadalar üçün alternativ səki yaradılmalıdır. Təmir getdiyi müddətdə, bu müddət uzun zaman da apara bilir, alternativ səki yaradılmalıdır ki, piyada həyatını təhlükəyə atıb yolun hərəkət hissəsi ilə addımlamalı olmasın.

Məlahət

### ELANLAR

10.03.1981-ci il təvəllüdlü Hüseynova Aytən Xanlar qızının adına 2001-ci ildə R.Q.Əliyev adına Bakı Tibb Məktəbini "Feldşer" ixtisası üzrə bitirməsinə dair verilmiş AB-II № 063656 nömrəli diplom itdiyinə görə etibarsız sayılır.

Birinci Qarabağ müharibəsi şəhidi Əliyev Fəzail Sabir oğlunun həyat yoldaşı Əliyeva Teyyubənin adına Sabunçu rayonu, Ramana qəsəbəsində Sosial Evlər adlanan yerdə bina 25, mənzil 26 ya verilmiş evin sənədləri itdiyi üçün etibarsız sayılır.

Gizir Əzizov Rasif Zəfər oğluna 23.06.2014-cü il tarixdə verilmiş SQ N: 0015070 nömrəlli gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız hesab edilir.

Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecinin 2-ci kurs tələbəsi Vəliyev Əlican Cəlal oğluna məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.

AzTU nəzdində Bakı Rabitə və Nəqliyyat Kollecinin 1-ci kurs tələbəsi Qasımov Kamil Yusif oğlunun tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Həsənova Südabə Oktay qızına məxsus Şəhid ailəsi üzvünün 000343 saylı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


Təsisçi: "Şərq Media Qrup" MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun I müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, Nihat Müzəffər, Banuçiçək Kalbalıyeva, Aybəniz Səfərova, Elmar İbrahimli

Texniki heyət:
Xaqani Kosayev, Pərvin İbrahimov
İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

"Şərq Media Qrup" MMC-yə daxildir:
"Şərq" qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50,
Elan, reklam - mob: (050) 313-82-83,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 741

## Həmişə bu güncdə



**Bəzən doğru yolu tapa bilmirsən.**
**Bəzən isə irəlilədikcə yol özü yaranır.**

Hər kəsin keçdiyi yollardan keçmək məcburiyyətində deyilsən. Öz ritmində, öz istiqamətində irəliləyə bilərsən. Əsas olan nə qədər sürətli getməyin deyil, atdığın addımların səni özünə yaxınlaşdırmasıdır.

Çünki bəzi yollar var ki, çatmaq üçün deyil, insanı dəyişdirdiyi üçün gözəldir.




# Dünyada ilk

**Alimlərin sözlərinə görə, bu texnologiya gələcəkdə təkcə COVID deyil, həm də qrip, Ebola və potensial yeni pandemiyalara səbəb ola biləcək viruslara qarşı universal peyvəndlərin hazırlanmasına imkan verə bilər**

## Süni intellekt yeni nəsil peyvənd hazırladı

**Böyük Britaniyanın Kembric Universitetindən alimlər süni intellektdən istifadə edərək yeni nəsil peyvənd hazırladıqlarını açıqlayıblar.**

"Şərq" xəbər verir ki, məlumata görə, bu peyvənd koronavirusun bütün variantları da daxil olmaqla geniş virus qrupuna qarşı qoruma təmin edə biləcək şəkildə dizayn edilib.

Tədqiqatçılar bildirirlər ki, süni intellekt virusların genetik məlumatlarını analiz edərək "süper-antigen" adlanan yeni immun sistemi hədəfi yaradıb. Bu yanaşma orqanizmin müxtəlif virus ailələrinə qarşı daha geniş immun cavab verməsini hədəfləyir.

İlkin mərhələdə 39 könüllü üzərində aparılan sınaqlar peyvəndin təhlükəsiz olduğunu göstərib. Təxminən 200 nəfərin iştirak edəcəyi növbəti mərhələ isə immun reaksiyanın gücünü qiymətləndirməyə yönəlib.

Alimlərin sözlərinə görə, bu texnologiya gələcəkdə təkcə COVID deyil, həm də qrip, Ebola və potensial yeni pandemiyalara səbəb ola biləcək viruslara qarşı universal peyvəndlərin hazırlanmasına imkan verə bilər.

Mütəxəssislər süni intellektin peyvənd tədqiqatlarında "oyun dəyişdirici" ola biləcəyini və inkişaf prosesini xeyli sürətləndirə biləcəyini vurğulayırlar.



# Bakıdan Ankaraya

## Oğluna böyrəyini verib həyat bağışladı



**Bakıda yaşayan Süleyman Vəliyev üçün anasının etdiyi fədakarlıq yeni bir həyatın qapısını açıb.**

"Şərq" xəbər verir ki, uşaqlıqdan böyrək xəstəliyi ilə mübarizə aparan Vəliyevin vəziyyəti son illərdə ağırlaşıb və o, təxminən 8 ay əvvəl dializ müalicəsinə başlayıb. Sağlamlığının pisləşməsi səbəbindən işləyə bilməyən xəstə üçün yeganə ümid orqan köçürülməsi olub.

Müalicə üçün Türkiyəyə gələn Vəliyev əməliyyatını anası Gülər Vəliyevanın fədakarlığı sayəsində keçirib. 56 yaşlı ana Ankara Bilkent Şəhər Xəstəxanasında oğluna böyrəyini bağışlayıb.

Ana Vəliyeva bildirib ki, "Ana övladı üçün canını belə verər" deyərək bu qərarı tərəddüdsüz qəbul edib.

Həkimlərin məlumatına görə, əməliyyat uğurla keçib və həm donor, həm də pasiyent hazırda yaxşı vəziyyətdədir. Bundan sonra Süleyman Vəliyevin dializ ehtiyacı da olmayacaq.

Mütəxəssislər bildirirlər ki, belə canlı donor transplantasiyaları böyrək çatışmazlığı olan xəstələr üçün ən effektiv müalicə üsullarından biridir.

# Ağırlıq qaldırmaq...

## Erkən ölüm riskini əhəmiyyətli dərəcədə azaldır



**Yeni araşdırmalar göstərir ki, müntəzəm ağırlıq və müqavimət məşqləri erkən ölüm riskini əhəmiyyətli dərəcədə azaldır.**

Məlumata görə, həftədə 90 dəqiqə-2 saat arası ağırlıq məşqləri edən insanlarda ürək-damar xəstəlikləri və insultdan ölüm riski daha aşağı olur.

Tədqiqatlar həmçinin göstərir ki, bu cür məşqlər nevroloji xəstəliklərdən ölüm riskini də azaldır.

147 mindən çox insanın məlumatları analiz edilib və nəticələrə əsasən, müntəzəm güc məşqləri edənlərdə ümumi erkən ölüm riski təxminən 13% azalıb. Ürək-damar xəstəliklərindən ölüm riski 19%, nevroloji xəstəliklərdən ölüm riski isə 27% aşağı olub.

Mütəxəssislər bildirirlər ki, həm aerobik (qaçış, velosiped, üzgüçülük), həm də güc məşqlərinin birlikdə edilməsi ən yaxşı nəticəni verir. Bu halda erkən ölüm riskində azalma 58%-ə qədər çata bilər.

Araşdırmaya görə, həftədə 2 saatdan çox ağırlıq məşqi etmək isə əlavə fayda vermir.

Ekspertlər qeyd edirlər ki, güc məşqləri təkcə fiziki sağlamlığı deyil, həm də sümük möhkəmliyini, maddələr mübadiləsini və hətta zehni funksiyaları yaxşılaşdıra bilər.

# Valideynlər diqqətli olsunlar

## Oyuncaqlardakı plastik uşaqlar üçün risklidir



**Bu gün uşaq üçün nəzərdə tutulan bir çox məhsul - oyuncaqlar, qablar, əmziklər və digər əşyalar plastikdən hazırlanır. Lakin bütün plastik növləri uşaqlar üçün təhlükəsiz deyil.**

"Şərq" xəbər verir ki, mütəxəssislərin fikrincə, plastik məmulatların əsas üstünlükləri onun yüngül olması, davamlılığı və gigiyenik təmizlənməsinin asanlığıdır. Eyni zamanda, düzgün seçilmiş plastik zərərli maddələrin yayılmasının qarşısını ala bilər.

Lakin ekspertlər xəbərdarlıq edirlər ki, hər plastik uşaq üçün uyğun deyil. Məhsulun üzərindəki sertifikat və işarələr onun hansı materialdan hazırlandığını göstərir və valideynlər alış zamanı buna diqqət etməlidirlər.

Mütəxəssislər vurğulayırlar ki, uşaq məhsulları üçün yalnız təhlükəsiz hesab edilən və xüsusi standartlara cavab verən plastik növlərdən istifadə olunmalıdır.



# Daha xoşbəxt olmağın sirri: özünlə barış

**Özünlə barış içində bir həyat yaşamaq zaman və səy tələb edən bir prosesdir. Amma bu yolda atdığın hər addım səni daha xoşbəxt, daha sakit və daha balanslı həyata yaxınlaşdırır.**

Müasir dünyada stress, narahatlıq və daimi məşğulluq bir çox insanın daxili rahatlıqdan uzaq yaşamasına səbəb olur. Amma həyatın qarışıqlığı içində özünlə barış içində yaşamaq mümkündür. Bu, təkcə xarici hadisələrə deyil, həm də daxili dünyamıza diqqət yetirməklə əldə olunur.

**Özünlə barış içində yaşamağın yolları:**

**1. Özünü tanımaq və qəbul etmək**

Özünlə barışın ilk addımı özünü tanımaq və olduğun kimi qəbul etməkdir. Güclü və zəif tərəflərini anlamaq vacibdir. Heç kim mükəmməl deyil və bunu qəbul etmək daxili rahatlığın əsasıdır.

**2. Özünə sevgi və qayğı**

Özünə dəyər vermək və qayğı göstərmək daxili sakitliyin açarıdır. Sağlam qidalanmaq, idman etmək, yaxşı yatmaq və emosional ehtiyaclarına diqqət etmək vacibdir.

**3. Mənfi düşüncələrdən uzaqlaşmaq**

Mənfi fikirləri aşkar edib onları müsbət düşüncələrlə əvəz etmək daxili rahatlığı gücləndirir. Meditasiya və diqqət (mindfulness) bu prosesə kömək edir.

**4. Bağışlamaq və keçmişi buraxmaq**

Keçmişdəki səhvləri və inciklikləri bağışlamaq insanı azad edir və irəliləməyə imkan yaradır.

**5. Anı yaşamaq**

Keçmiş və gələcək narahatlıqlarından çox, indiki anı yaşamaq daxili sakitliyi artırır.

**6. Sağlam münasibətlər qurmaq**

Dəstəkləyici və müsbət münasibətlər insanın özünlə barışını asanlaşdırır. Mənfi insanlardan uzaq durmaq vacibdir.

Unutma ki, daxili rahatlığın açarı özünü sevmək və özünə dəyər verməkdir.

# Alimlərdən gözlənilməz nəticə

## Tər qoxusu eşq deyil, təhlükə siqnalı verir



**İnsanların bir-birinə cəlb olunmasında "feromonların həlledici rol oynadığı" barədə məşhur fikir elmi araşdırmalarla təsdiqlənməyib. Neyrobioloqlar müəyyən ediblər ki, insan burnu qarşı tərəfin qoxusunu daha çox təhlükə, xəstəlik və stress əlamətlərini müəyyənləşdirmək üçün analiz edir.**

"Şərq" xəbər verir ki, araşdırmalara görə, qadınlar tanımadıqları kişilərin qoxusunu daha xoş hesab etsələr də, həyat yoldaşlarının və ya partnyorlarının qoxusunu daha cəlbedici və seksual kimi qiymətləndirirlər. Alimlər bunu feromonlarla deyil, emosional bağlılıq və yaxınlıq hissi ilə izah edirlər.

Tədqiqatlar həmçinin göstərib ki, qorxu keçirən və ya xəstə olan insanların tər qoxusu ətrafdakılarda şüuraltı narahatlıq yarada bilir. Hətta insan orqanizmi belə qoxuları hiss etdikdə potensial təhlükəyə qarşı müdafiə reaksiyası işə düşür.

Mütəxəssislərin qənaətincə, kəskin tər qoxusu ətrafdakılar tərəfindən ehtiras deyil, daha çox xəstəlik, stress və ya gigiyena problemi siqnalı kimi qəbul edilir. Buna görə dezodorantdan istifadə təkcə estetik deyil, həm də sosial rahatlıq baxımından əhəmiyyət daşıyır.

**Hazırladı: Turan**

# Səssiz təhlükə

## Uzun müddət oturmaq beyni kiçildir



**Yeni araşdırmalar göstərir ki, uzun müddət oturmaq, hətta müntəzəm idman edən insanlarda belə altsheymer xəstəliyi, idrak qabiliyyətinin zəifləməsi və beyin həcminin azalması ilə əlaqəli ola bilər.**

"Şərq" xəbər verir ki, alim "Marissa A. Gogniat" rəhbərliyi ilə aparılan 7 illik araşdırmada 400-dən çox yaşlı iştirakçı izlənilib. Nəticələr göstərib ki, daha çox oturan insanlarda, xüsusilə APOE-e4 geninə sahib şəxslərdə, beyin funksiyalarında daha sürətli zəifləmə və bəzi beyin bölgələrində kiçilmə müşahidə olunur.

Tədqiqatçıların sözlərinə görə, fiziki aktivlik vacib olsa da, uzun müddət hərəkətsiz qalmaq idmanın faydasını qismən zəiflədə bilər və bu, altsheymer riskinə müstəqil təsir göstərə bilər.

Mütəxəssislər bildirirlər ki, oturmaq zamanı görülən fəaliyyət də önəmlidir: kitab oxumaq kimi zehni aktivliklər müsbət təsir göstərə bilər, lakin uzun müddət televizor qarşısında oturmaq eyni faydanı vermir.

Alimlər vurğulayırlar ki, beyin sağlamlığını qorumaq üçün əsas məqsəd tam hərəkətsizlikdən qaçmaq və gün ərzində oturma müddətlərini tez-tez fasilələrlə bölməkdir.

## Dil "yonca" qatlama qabiliyyəti genetik deyilmiş



**İnsanların təxminən 15 faizi tərəfindən bacarıldığı düşünülən dilin "yonca" formasında qatlanması uzun illər genetik xüsusiyyət kimi qəbul edilib. Lakin son araşdırmalar bu fikrin tam doğru olmadığını ortaya çıxarıb.**

"Şərq" xəbər verir ki, bu mövzuda ilk nəzəriyyəni 1940-cı ildə alim Alfred Sturtevant irəli sürərək, dil qatlama qabiliyyətinin tək bir dominant genlə bağlı olduğunu iddia etmişdi. Lakin sonrakı tədqiqatlar bu yanaşmanın kifayət qədər dəqiq olmadığını göstərib.

1952-ci ildə aparılan bir araşdırmada eyni genetikaya malik olan əkizlərdə belə fərqli nəticələr qeydə alınıb: 33 əkiz cütündən 7-də bacı-qardaşlardan biri bu hərəkəti edə bildiyi halda, digəri bacarmayıb. Bu da genetik amilin yeganə faktor olmadığını sübut edib.

Alimlər bildirirlər ki, dilin qatlanması təkcə genlərlə deyil, həm də anatomiya, əzələ quruluşu və vərdişlərlə bağlıdır. Dil əzələləri öyrədilə bilən strukturdur və uşaqlıq dövründə məşq etməklə bu bacarıq sonradan da qazanıla bilər.

Əslində, araşdırmalara görə, insanların 65-80 faizi dili sadə "U" formasında qatlamağı bacarır. Lakin "yonca" formasında qatlama daha nadir sayılır və təxminən 14-15 faiz insan bu hərəkəti edə bilir.

Nəticə olaraq, elm adamları bu qabiliyyətin sadəcə genetik deyil, həm də öyrənilə bilən və anatomik faktorlardan asılı olan kompleks bir xüsusiyyət olduğunu vurğulayırlar.